

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 33 (824) ■ 24 avqust 2016 www.vergiler.az Qiyməti: 55 qəp.


# Azərbaycan idmançısı Radik İsayev Olimpiya çempionu oldu

Azərbaycan taekvondoçusu Radik İsayev Rio-de-Janeyrodakı XXXI Yay Olimpiya Oyunlarının çempionu adını qazanaraq xalqımıza qələbə sevinci bəxş edib. 80 kiloqramdan yuxarı çəki dərəcəsində kişilərin taekvondo yarışlarında mübarizə aparan Azərbaycan təmsilçisi, dünya və Avropa çempionu, «Bakı-2015»in qalibi Radik İsayev olimpiya zirvəsinədək çətin yol keçib. O, səkkizdəbir final mərhələsində qazaxıstanlı Ruslan Japarovu 11:2 hesabı ilə məğlub edib. Daha sonra Cənubi Koreya idmançısı, Pekin Olimpiadasının qızıl medalçısı Ça Donqmine 12:8 hesabı ilə qalib gələrək növbəti mərhələyə vəsiqə qazanıb. Təmsilçimiz yarımfinal mərhələsində Mahama Ço (Böyük Britaniya) ilə döyüşü də qələbə ilə başa vuraraq Olimpiya Oyunlarının finalına yüksəlib.

Radik İsayev həlledici döyüşdə Afrika oyunlarının qalibi Abdulrazak İssufu Alfaqa (Niger) ilə qarşılaşıb. Qarşılaşmanın ilk hissəsində hesab açılmayıb. İlk hissədə rəqibin başına zərbə endirməyə imkan tapan təmsilçimiz 3:0 hesabı ilə önə keçib. İkinci hissə bu hesabla başa çatıb. İdmançımız sonuncu raundda ikinci dəqiq zərbə ilə hesabına daha üç xal əlavə edib - 6:0. Nigerli idmançının gücü yalnız 2 xal qazanmağa yetib. Beləliklə, final döyüşünü 6:2 hesabı ilə başa vuran dünya və Avropa çempionu Radik İsayev komandamıza qızıl medal qazandırıb.

Olimpiya çempionu Radik İsayevin şərəfinə Azərbaycan Respublikasının dövlət himni səsləndirilib, dövlət bayrağımız ucaldılıb.



# Prezidentin mətbuat xidmətinin məlumatı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 21-də Rio-de-Janeyro Olimpiadasında qızıl medal qazanmış taekvondoçumuz Radik İsayevə telefonla zəng edib.

Prezident İlham Əliyev bildirib ki, Radik İsayevin bu inamlı qələbəsi bütün Azərbaycan xalqını sevindirib. Dövlətimizin başçısı vurğulayıb ki, Radik İsayev əvvəllər də taekvondo üzrə öz çəki dərəcəsində dünyada ən güclü idmançı olduğunu sübut edib. Belə ki, o, dünya çempionatında qələbə qazanıb, indi də Olimpiya çempionu adına layiq görülüb. Prezident İlham Əliyev idmançımızı səmimi qəlbdən təbrik edib, ona yeni-yeni uğurlar və qələbələr arzulayıb. Dövlətimizin başçısı onun təbriklərini idmançının məşqçisinə də çatdırmağı xahiş edib.

Radik İsayev təbriklərə görə dərin təşəkkürünü bildirib. Qeyd edib ki, bu qələbəni Prezident İlham Əliyevin Azərbaycanda idmana göstərdiyi böyük diqqət və qayğı nəticəsində əldə etmək mümkün olub.

# Azərbaycanda dayanıqlı inkişaf təmin olunub

## Prezident İlham Əliyevin iqtisadi islahatlar konsepsiyası ölkənin daha da irəliləməsi hədəflərinə hesablanıb

Ölkədə qeyri-neft sənayesinin, sahibkarlığın inkişafı, maliyyə sahəsində şəffaflığın artırılması, eləcə də ictimai nəzarət mexanizminin fəallaşdırılması istiqamətində konkret addımlar atılır, mühüm sənədlər imzalanır. Prezident İlham Əliyevin iqtisadi islahat konsepsiyasında yer alan ən mühüm amil ölkə iqtisadiyyatının davamlı inkişafının təmin edilməsi, regionların tərəqqisinin sürətləndirilməsidir. Yeni iqtisadi islahatlar dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən inkişaf strategiyasının tələblərindən irəli gəlir.

Bu gün region ölkələrində müşahidə edilən iqtisadi problemlər, Yaxın Şərqdə gərginliyin çoxalmasına, dünya iqtisadiyyatında xüsusi çəkisi olan dövlətlərin iqtisadi artım tempinin enməsinə baxmayaraq, Azərbaycanın dayanıqlı inkişafı təmin olunur. Prezident İlham Əliyevin çevik və praqmatik siyasəti, uzaqgörənliklə qəbul etdiyi qərarlar, həyata keçirilən qabaqlayıcı tədbirlər, xarici risklərin Azərbaycan iqtisadiyyatına mənfi təsirini neytrallaşdırır, ölkəmizin inkişafını təmin edir. Dövlət başçısının həyata keçirdiyi iqtisadi siyasətin əsas xarakterik xüsusiyyətləri onun sosialyönümlü olması, habelə bütün problemlərin həllində iqtisadi aspektin mövcudluğunun ön plana çəkilməsidir. Ölkə iqtisadiyyatının inkişafı üçün mütəmadi surətdə reallaşdırılan praqmatik islahatlar modeli formalaşdırılıb ki, bu da bütövlükdə milli inkişafa təkan verən əhəmiyyətli amildir.

Dövlət başçısının iqtisadi islahatlar paketi çərçivəsində ötən ilin sonlarından etibarən sahibkarlığın inkişafı ilə bağlı verilən qərarlar strateji xarakter daşımaqla yanaşı, ölkədə sahibkarlığın inkişafında yeni dövrün başlanğıcına zəmin yaratmışdır. İqtisadiyyatın bütün sahələrində dövlət öz imkanları hesabına müasir sahibkarlıq subyektlərinin formalaşmasına geniş imkan yaratmış, onların öz potensiallarından səmərəli istifadə etmələri üçün əlverişli mühit formalaşdırmışdır. Biznes və investisiya mühitinin yaxşılaşdırılması ilə bağlı həyata keçirilən sistemli tədbirlər bu gün xüsusilə böyük əhəmiyyət kəsb edir. Bu ilin yanvar ayında sahibkarlığın inkişafı ilə bağlı dövlət başçısının imzaladığı mühüm qərarlar biznes mühitinin yaxşılaşdırılması istiqamətində yeni mərhələnin başlanğıcı olmuşdur. Belə ki, sahibkarlıq subyektlərində yoxlamalar 2 il müddətinə dayandırılmış, lisenziya tələb olunan fəaliyyət növlərinin sayı 59-dan 37-yə endirilmiş, lisenziyalar müddətsiz müəyyən olunmuş, dövlət rüsumunun məbləği Bakıda 2 dəfə, regionlarda isə 4 dəfə azaldılmışdır. Prezident İlham Əliyevin fərmanı ilə yaradılmış apelyasiya şuraları isə sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin şikayətlərinə baxılması sahəsində şəffaflığın və obyektivliyin təmin edilməsi, bu sahədə onların hüquqlarının, qanunla qorunan maraqlarının müdafiəsi məqsədi daşıyır.

Ölkədə biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması, özəl sektora dövlət dəstəyinin genişləndirilməsi nəticəsində sahibkarlıq qeyri-neft sektorunun inkişafının aparıcı qüvvəsinə çevrilmişdir. Sahibkarlıq fəaliyyətinə əsassız müdaxilələrin aradan qaldırılması üçün yeni yaradılan «Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestri» bu sahə ilə məşğul olanların hüquqlarının müdafiəsinə, sui-istifadə hallarının qarşısının alınmasına və şəffaflığın artırılmasına xidmət edir.

Prezident İlham Əliyev bu il aprelin 21-də «İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında» fərman imzalamaqla iqtisadi inkişafın müasir dünya təcrübəsinə və dərin elmi araşdırmalara köklənməsini vacib saydığını bir daha təsdiqlədi. Bundan sonra ölkəmizdə yeni «beyin mərkəzi»ndə ideyalar və layihələr müasir dünyanın tələbləri baxımından təhlil ediləcək, iqtisadi inkişaf modelləri müxtəlif elmlərin baxış bucağından daha uğurlu məcraya səmtləndiriləcək. Faktiki olaraq, əqli mülkiyyətin geniş istifadəsinə, elmi nailiyyətlərin sürətlə istehsala tətbiqinə geniş yol veriləcək. Eyni zamanda, yeni «beyin mərkəzi»ndə iqtisadi təhlillər aparılacaq, qısa və ortamüddətli proqnozlar hazırlanacaq.

İlin əvvəlində dövlət başçısı qeyd etmişdir ki, 2016-cı il Azərbaycanda dərin iqtisadi islahatlar ili olacaq: «Neftin qiymətinin 4 dəfə, qonşu ölkələrin milli valyutalarının 100 faiz dəyərdən düşməsi manatın məzənnəsini sabit saxlamağa imkan vermədi. Ancaq nəzərə almaq lazımdır ki, bizim bazar iqtisadiyyatı şəraitində yaşayırıq.

Sosial siyasət, dərin iqtisadi islahatlar bizə bu vəziyyətdən də uğurla çıxmağa imkan verəcək. 2016-cı il dərin iqtisadi islahatlar ili olmalıdır və olacaq. Əlavə sərəncam və fərmanlar da imzalanacaq ki, iqtisadiyyatımız güclənsin».

Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında isə Prezident İlham Əliyev daha ciddi islahatların gömrük və vergi sahələrində aparıldığını vurğulamışdır. Qeyd etmişdir ki, vergi orqanlarında aparılan islahatlar bu sistemin daha da şəffaf olmasına şərait yaradacaq. Eləcə də gömrük orqanlarında bütün məsələlər şəffaf şəkildə həllini tapacaq.

Azərbaycan iqtisadiyyatında müsbət yeniliklərə səbəb olacaq daha bir sənəd isə avqustun 4-də imzalandı. Dövlət başçısının «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» sərəncamı Azərbaycan iqtisadiyyatı üçün çox pozitiv bir yenilik oldu. Beynəlxalq təcrübədən istifadə olunmaqla hazırlanan bu sənəd Azərbaycan vergi sisteminin beynəlxalq praktikaya tam uyğunlaşmasına şərait yaratdı. İqtisadçı ekspertlər birmənalı olaraq bəyan etdilər ki, bu sənəddə nəzərdə tutulan fəaliyyətlərin reallaşması vergi yükünün ciddi şəkildə azalmasına səbəb olacaq. Eyni zamanda bu sərəncam vergi dərəcələrinin optimallaşdırılması baxımından olduqca mütərəqqi sənəddir.

Bu sahədə həyata keçirilməsi nəzərdə tutulan tədbirlər sırasında əlavə dəyər vergisi ilə bağlı məqamlar xüsusi diqqət çəkir. Məsələn, sərəncamda qeyd olunur ki, kiçik və orta sahibkarlığı stimullaşdırmaq, pərakəndə ticarətdə rəqabət mühitini təmin etmək və vergi yükünü optimallaşdırmaq məqsədilə pərakəndə ticarət fəaliyyəti ilə məşğul olanlardan ƏDV ticarət əlavəsindən tutulacaq.

Aparılan islahatlar gömrük sistemində də müsbət dəyişikliklərə səbəb olub. Gömrük sistemində həyata keçirilən son islahatlar nəticəsində dövlət sərhədinin buraxılış məntəqələrinin buraxılış qabiliyyətini artırmaq və vətəndaşların rahatlığını təmin etmək üçün malların, nəqliyyat vasitələrinin yoxlanılmasında «bir pəncərə» prinsipi daha da təkmilləşdirilib. Həmçinin ticari-iqtisadi münasibətlərdə idxal-ixrac əməliyyatlarının rəsmiləşdirilməsinin sadələşdirilməsi, bütün istiqamətlərdə gömrük işinin beynəlxalq standartlara uyğun aparılması, normativ hüquqi bazanın yaradılması, ticarətin asanlaşdırılması, gömrük sərhədindən mal dövriyyəsinin sürətləndirilməsi, ölkədə sahibkarlığın inkişafında və biznes mühitinin formalaşmasında, iqtisadi təhlükəsizliyin möhkəmləndirilməsində gömrük sisteminin rolunun daha da artırılması üçün bir sıra məqsədyönlü işlər görülüb.

Prezident İlham Əliyevin mart ayında gömrük sistemində islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında imzaladığı sərəncam xaricdən gətirilən malların qeydiyyat prosesinin sadələşdirilməsi, tranzit yüklərin sığorta və gömrük sahəsində müəyyən xidmətlərin ödənişindən azad olunmasını, gömrük rəsmiləşdirilməsi zamanı tələb olunan sənədlərin və prosedurların sayının minimuma endirilməsini təmin edib. Azərbaycanın həm də tranzit ölkəsi olaraq inkişaf etməsinə təkan verən bu sənəd ölkənin biznes mühitinin daha da sağlamlaşması ilə nəticələnib.

Sadalanan faktlar bir daha təsdiqləyir ki, Azərbaycan Prezidentinin müəyyənləşdirdiyi iqtisadi islahatlar ölkənin yeni inkişaf hədəflərinə hesablanıb və bu, ölkəmizin tərəqqisini daha da sürətləndirəcək.

**«Azərbaycan» qəzeti**

# Belçika-Azərbaycan əlaqələrinin möhkəmlənməsi üçün yaxşı potensial var

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 16-da Belçika Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bert Skufsun etimadnaməsini qəbul edib. Səfir Bert Skufs fəxri qarovul dəstəsinin qarşısından keçib. Bert Skufs etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət edib.

Azərbaycan-Belçika ikitərəfli əlaqələrinin uğurla inkişaf etdiyini qeyd edən dövlətimizin başçısı bu əlaqələrin razılıq doğurduğunu bildirib. Ölkələrimiz arasında ticarət, sərmayələr, təhsil və digər sahələrdə mövcud olan əlaqələrin daha da möhkəmləndirilməsi üçün yaxşı potensialın olduğunu deyən Prezident İlham Əliyev iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulayıb. Belçika şirkətlərinin Azərbaycandakı fəaliyyətinə toxunan dövlətimizin başçısı xüsusən tikinti sahəsində bu şirkətlərin uğurlu təcrübəsini qeyd edib. Prezident İlham Əliyev səfirə diplomatik fəaliyyətində uğurlar arzulayıb.

Belçika şirkətlərinin Azərbaycanda tikinti sahəsi ilə yanaşı, logistika, əczaçılıq, tibb, texnologiyalar və digər sahələrdə fəaliyyət göstərdiklərini qeyd edən səfir Bert Skufs ölkəsinin iş adamlarının Azərbaycan şirkətləri ilə işləməyə hər zaman açıq olduqlarını bildirib. Fəaliyyətinin əsas məqsədinin ölkələrimiz arasında yaxşı münasibətləri davam etdirmək olacağını vurğulayan səfir ilk ölkənin maraqları daxilində iqtisadi əməkdaşlıq imkanlarını araşdırmaq istiqamətində də səylərini əsirgəməyəcəyini vurğulayıb.

## BU NÖMRƏMİZDƏ


İQTİSADİ İNKİŞAF ÜÇÜN YENİ İMKANLAR 2

VERGİ TƏDRİS MƏRKƏZİ İNSAN RESURSLARININ İNKİŞAFINA XİDMƏT EDİR 3

VERGİLƏR NAZİRLİYİ HESABATLILIĞIN VƏ ŞƏFFAFLIĞIN TƏMİN OLUNMASINDA YÜKSƏK NƏTİCƏLƏR ƏLDƏ EDİB 4

HƏR KƏS NÜMUNƏVİ VERGİ ÖDƏYİCİSİ OLA BİLƏR 5

# İqtisadi inkişaf üçün yeni imkanlar

Azərbaycan Respublikası Prezidentinin «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» 4 avqust 2016-cı il tarixli sərəncamı bu il vergi sahəsində aparılacaq əsaslı islahatlara yol açacaq. Həyata keçirilməsi nəzərdə tutulan tədbirlər sırasında əlavə dəyər vergisi ilə bağlı məqamlar xüsusi diqqət çəkir.

Sərəncamda göstərilir ki, kiçik və orta sahibkarlığı stimullaşdırmaq, pərakəndə ticarətdə rəqabət mühitini təmin etmək və vergi yükünü optimallaşdırmaq məqsədilə pərakəndə ticarət fəaliyyəti ilə məşğul olanlardan ƏDV ticarət əlavəsindən tutulacaq.

## ƏDV son istehlakçıdan alınan istehlak vergisidir və bu verginin ticarət əlavəsindən hesablanması qiymətlərin aşağı düşməsi ilə nəticələnməlidir

Qeyd edək ki, kənd təsərrüfatı məhsullarının istehsalçıları 1999-cu ildən torpaq vergisi istisna olmaqla Vergi Məcəlləsi ilə müəyyən edilmiş digər vergilərin ödənilməsindən azad edilib. Hazırda pərakəndə satış zamanı həmin məhsulların dəyəri ümumi qaydada ƏDV-yə cəlb edilir. Bununla yanaşı, ƏDV ödəyicisi olmayan şəxslərdən alınmış mallar da ticarət şəbəkələri tərəfindən 18 faiz dərəcə ilə ƏDV tətbiq edilməklə satılır. Bunun nəticəsində kənd təsərrüfatı məhsullarının qiymətlərində süni artımın olması onların ticarət dövriyyəsinə mənfi təsir göstərir.

Qüvvədə olan qanunvericiliyə uyğun olaraq, ƏDV tutulan əməliyyatın dəyəri vergi ödəyicisinin müştəridən və ya hər hansı digər şəxsdən aldığı, yaxud almağa hüququ olduğu haqqın ƏDV nəzərə alınmadan məbləği əsasında müəyyən edilir. Vergi Məcəlləsində ƏDV tutulan əməliyyatın dəyərinin müəyyən edilməsinin başqa qaydası nəzərdə tutulmadığından ticarət şəbəkələri ümumi dövriyyədən ƏDV hesablamalı olurlar ki, bu da pərakəndə satış qiymətində bahalaşmaya səbəb olur. Yeni islahatlar isə bu sahəni əhalinin və sahibkarın xeyrinə tənzimləyəcək.

Vergilər Nazirliyindən bildirilib ki, ƏDV son istehlakçıdan alınan istehlak vergisidir və bu verginin ticarət əlavəsindən hesablanması qiymətlərin aşağı düşməsi ilə nəticələnməlidir. Bu da sahibkarın dövriyyəsinin, son nəticədə isə mənfəətinin artmasına müsbət təsir göstərəcək. Ona görə də pərakəndə ticarət fəaliyyəti ilə məşğul olan şəxslər ƏDV-dən azad olunan mallar və ƏDV ödənilməklə alınmış malların hər birinin uçotunu ayrı-ayrılıqda aparmalıdır. Əgər uçotu aparılmazsa, ƏDV ümumi dövriyyəyə tətbiq olunacaq. Buna görə də əlavə dəyər vergisinin ticarət əlavəsindən hesablanması sosial xarakterlidir.

Bu istiqamətdə sərəncamdan irəli gələn məsələlər pərakəndə ticarət fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərinin dairəsinin dəqiq müəyyənləşdirilməsini zəruri edir. Hazırda topdansatış fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən malların satışı zamanı əksər hallarda ciddi hesabat blanklarından istifadə edilmir. Bununla yanaşı, həmin obyektlərdən malların pərakəndə qaydada da satışı həyata keçirilir və bu onların vergitutma obyektinin müəyyən edilməsində çətinliklər yaradır. Həmin səbəbdən topdan və pərakəndə ticarət fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərini fərqləndirən meyarların müəyyən edilməsinə zərurət yaranır.

Ekspertlərin fikrincə, bu addım topdan və pərakəndə ticarətlə məşğul olan vergi ödəyiciləri üçün daha konkret meyar və ya sərhədlərin müəyyənləşdirilməsi və fərqli vergi yüklərinin müəyyənləşdirilməsinə səbəb olacaq. Ticarət növləri üzrə fərqli vergi güzəştləri tətbiq edilə bilər ki, bu da öz növbəsində sağlam rəqabət mühitinə yol açacaq.

Əlavə dəyər vergisi ilə bağlı digər məqam ondan ibarətdir ki, islahatların davamı olaraq, ölkədə aparılan sosial siyasət bir sıra istehlak mallarının qiymətlərinin həmin mallara 18 faiz dərəcə ilə tətbiq edilən ƏDV-nin diferensiallaşdırılması yolu ilə tənzimlənməsini nəzərdə tutur. Beynəlxalq təcrübədə bir sıra mallara, o cümlədən uşaq qidalarına, məktəbli ləvazimatlarına, dərman vasitələrinə, əlillər üçün tibbi məhsullara və avadanlıqlara, kitablara və bir sıra xidmət növlərinə ƏDV-nin diferensiallaşdırılmış dərəcəsi tətbiq edilir. Bu məqsədlə beynəlxalq təcrübə öyrənilərək Vergi Məcəlləsinə müvafiq dəyişikliklər olunacaq.

Ekspertlərin qənaətinə görə, ƏDV-nin diferensiallaşdırılması stimullaşdırıcı xarakter daşıyır. Diferensial ƏDV ilə kiçik sahibkarlığın inkişafına imkan yaranır, müəssisə daha da böyüməyə meyilli olur. Eyni zamanda, bu addım sahibkarlıq subyektlərinin sayının artımına gətirib çıxarır. Sahibkarlıq subyektlərinin sayı artdıqca isə vergi ödəyicilərinin də sayı artmış olur.

Ümumiyyətlə, diferensiallaşma iqtisadiyyatın optimallaşmasına, prioritet sektorların inkişafına və nəticədə sahibkarlara və istehlakçılara faydalı olacaq.

# Vergi yükü azaldılır

Azərbaycan Respublikası Prezidentinin 4 avqust tarixli «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında sərəncamında mühüm istiqamətlərdən biri də vergi yükünün azaldılması və inzibatçılığın yüngülləşdirilməsi ilə bağlıdır.

Vergilər Nazirliyindən bildiriblər ki, vergi idarəçiliyi sistemində inzibatçılığın müasir standartlar çərçivəsində təşkili həm vergi orqanlarının fəaliyyətinin səmərəliliyinə, həm də vergi ödəyicilərinin vergitutma sahəsində öhdəliklərinin keyfiyyətlə yerinə yetirilməsinə təsir göstərən əsas amillərdəndir və Azərbaycanın vergi siyasətində vergi inzibatçılığının təkmilləşdirilməsi mühüm yer tutur.

Vergi Məcəlləsinin qüvvəyə minərkən - 1 yanvar 2001-ci ildə hüquqi şəxslərin mənfəət vergisinin dərəcəsi 27 faiz olduğu halda, 2010-cu ildən 20 faizə endirilib. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin illik gəlirlərindən tutulan gəlir vergisinin dərəcəsi də 2010-cu ildən 20 faiz həddində müəyyən edilməklə hüquqi və fiziki şəxslərin mənfəətinə (gəlirinə) tətbiq olunan verginin dərəcəsi eyniləşdirilib. ƏDV-nin dərəcəsi Vergi Məcəlləsi qüvvəyə mindiyi tarixdən 18 faiz müəyyənləşdirilib.

Hazırda Azərbaycanda vergi yükü göstəricisi əksər dövlətlərdən aşağıdır. Lakin aparılan iqtisadi islahatlar fonunda qeyri-neft sektorunda investisiyaların təşviqi, istehsal fəaliyyəti ilə məşğul olan sahibkarların maliyyə vəsaitlərinə qənaət etməklə istehsalın genişləndirilməsi və məşğulluğun təmin edilməsi məqsədilə vergi yükünün yenidən qiymətləndirilməsi zərurəti yaranıb.

Sərəncamda diqqət çəkən məsələlərdən biri də sabit verginin tətbiqidir. Sabit vergi fiziki şəxslərin əldə etdiyi gəlirlərinin həcmindən asılı olmayaraq vahid məbləğdə müəyyən edilən aylıq vergidir. Sabit verginin tətbiqi təcrübəsi hazırda qüvvədə olan Vergi Məcəlləsində də mövcuddur. Mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə Azərbaycan Respublikasının ərazisində sərnişin və yük daşımalarını həyata keçirən şəxslərə münasibətdə sabit vergi sistemi nəzərdə tutulur. Həmin şəxslər Vergi Məcəlləsinin 220-ci və 221-ci maddələri ilə müəyyən edilmiş sadələşdirilmiş vergini sabit vergi şəklində ödəyir və bu zaman istəklərinə uyğun olaraq növbəti ay, rüb, yarımilllik və ya il üçün lFərqlənmə nişanı» alırlar. Mövcud qanunvericiliyə görə, fərdi xidmətlər təqdim edən və bu tip kiçik sahibkarlıq fəaliyyəti göstərən şəxslər də digər vergi ödəyiciləri kimi qanunvericiliklə müəyyən edilmiş vergilərin ödəyiciləridirlər. Fərdi sahibkarlıqla məşğul olduqlarına görə bu şəxslər əldə etdikləri gəlirdən, seçdikləri vergitutma metodundan asılı olaraq sadələşdirilmiş və ya gəlir vergisini hesablayıb dövlət büdcəsinə ödəməlidirlər. Bunun üçün onlar ilk növbədə Vergi Məcəlləsi ilə müəyyən olunmuş qaydada vergi orqanlarında uçota alınmalıdırlar.

## Aparılan iqtisadi islahatlar fonunda qeyri-neft sektorunda investisiyaların təşviqi, istehsalın genişləndirilməsi və məşğulluğun təmin edilməsi məqsədilə vergi yükünün yenidən qiymətləndirilməsi zərurəti yaranıb

Fərdi sahibkarlıqla məşğul olan şəxslərin vergi öhdəliklərinin sadələşdirilməsi və patent sisteminin tətbiqi ilə bağlı vergi qanunvericiliyinə dəyişikliklər edilməsi istiqamətində təkliflər son zamanlar geniş müzakirə mövzusu idi. Sərəncamda bu məsələ də öz həllini tapıb. Vergilər Nazirliyindən bildiriblər ki, yeniliklərin tətbiqi fərdi qaydada sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdə vergi inzibatçılığının yüngülləşdirilməsi, vergi ödəmələrinin bəyannamə təqdim edilmədən sadələşdirilmiş qaydada yerinə yetirilməsi məqsədini daşıyır. Bu məqsədlə Vergi Məcəlləsinə təklif edilən dəyişiklikdə həmin kateqoriyaya aid olan fiziki şəxslərin siyahısının və aylıq sabit vergi məbləğlərinin müəyyən edilməsi nəzərdə tutulur.

Sərəncamdan irəli gələn məsələlərin həlli vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın və şəffaflığın artırılmasına, real vergi potensialının müəyyən edilməsi üçün vergi sistemində islahatların davam etdirilməsinə və inzibatçılığın daha da təkmilləşdirilməsinə əhəmiyyətli töhfə verəcək.

# Vergi ödəyicilərinin hüquqları dövlət siyasətinin prioritetlərindəndir

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Elmira Süleymanovanın təşəbbüsü ilə 21 avqust -21 sentyabr tarixlərində respublikamızda «Sülh aylığı» elan edilmişdir. Ölkə başçısının 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş «Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılması sahəsində Milli Fəaliyyət Proqramı»na uyğun olaraq bu dövr ərzində sülh və insan hüquqları ilə bağlı tədbirlər keçirilir, bu istiqamətdə görülmüş və görüləcək işlərə bir daha nəzər yetirilir.

Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanmış «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında sərəncamda da vurğulanmışdır: «Vergi orqanlarının yaranmasından ötən dövr ərzində aparılmış genişmiqyaslı islahatlar, reallaşdırılmış kompleks tədbirlər və konkret hədəflərə yönəlmiş proqramlar nəticəsində ölkəmizdə müasir beynəlxalq standartlara cavab verən vergi xidmətinin formalaşdırılmasına nail olunmuşdur. Azərbaycan Respublikasında çevik və səmərəli vergi siyasətinin həyata keçirilməsi üçün vahid qanunvericilik bazası yaradılmış və qabaqcıl ölkələrin vergi qanunvericiliyi ilə uzlaşdırılmışdır. Azərbaycanın vergi sistemi dünyanın qabaqcıl ölkələrində tətbiq olunan əksər vergi xidmətlərini vergi ödəyicilərinə təqdim edir».

## Vergi qanunvericiliyində edilmiş dəyişikliklərin böyük əksəriyyəti vergi ödəyicilərinin hüquq və mənafelərinin qorunması ilə bağlıdır

Vergi orqanları tərəfindən «İnsan hüquq və azadlıqlarının müdafiəsi, o cümlədən sahibkarların hüquqlarının müdafiəsinin daha da möhkəmləndirilməsi» mövzusunda keçirilən görüşlərdə vergi ödəyicilərinin Vergi Məcəlləsi ilə təsbit edilmiş hüquq və vəzifələri, elektron xidmətlər, Vergilər Nazirliyinin Çağrı Mərkəzi, rəsmi internet səhifəsi, vergi ödəyicilərinə xidmət mərkəzləri, Vergi Apelyasiya Şurası və onun fəaliyyəti barədə görüş iştirakçılarına ətraflı məlumat verilir. Sahibkarlığın təşviqinə yönəlmiş vergi siyasətinin həyata keçirilməsi istiqamətində vergi qanunvericiliyi və vergi inzibatçılığı sahəsində vergi ödəyiciləri üçün zəruri informasiyanı əks etdirən kiçik həcmli bukletlər, Vergilər Nazirliyinin fəaliyyətini əks etdirən icmal jurnallar, «Vergi uşaqların gözü ilə» adlı jurnallar nəşr etdirilir və vergi ödəyicilərinə çatdırılır. Vergilər Nazirliyi vergi ödəyicilərinə 62 növ elektron xidmət göstərir, bu xidmətlərin növləri və əhatə dairəsi ilbəil genişlənir.

Vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyətinin artırılması və vergi ödəyicilərinin hüquqlarının qorunması ön planda dayanan məsələlərdən olduğu üçün vergi qanunvericiliyi müasir dövrün tələblərinə uyğun olaraq daim təkmilləşdirilir, vergi ödəyicilərinin məlumatlandırılması və maarifləndirilməsi sahəsində kompleks tədbirlər həyata keçirilir. Bunun nəticəsidir ki, vergi qanunvericiliyində edilmiş dəyişikliklərin böyük əksəriyyəti vergi ödəyicilərinin hüquq və mənafelərinin qorunması ilə bağlı olmuşdur. Vergi Məcəlləsində əvvəllər tətbiq olunan 13 vergi növündən 9-u təsbit olunmuş, əksər vergi növləri üzrə dərəcələr aşağı salınmış, aksizə cəlb olunan malların siyahısı azaldılmışdır. Məcəllədə vergi sistemi, vergitutmanın ümumi əsasları, vergilərin müəyyən edilməsi, ödənilməsi və yığılması qaydaları, vergi ödəyiciləri və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələri, vergi nəzarətinin forma və metodları, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət və digər qaydalar yüngülləşdirilmişdir. Qanunvericilikdə edilmiş əlavə və dəyişikliklər nəticəsində mənfəət vergisinin dərəcəsi 27%-dən 20%-ə, ƏDV-nin dərəcəsi 20%-dən 18%-dək azaldılmış, fiziki şəxslərin gəlir vergisinin hesablanması mexanizmi sadələşdirilmişdir. Onu da qeyd edək ki, ölkə başçısının vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi ilə bağlı sərəncamından irəli gələn vəzifələrin icrası ilə əlaqədar olaraq ƏDV-nin diferensiallaşdırılması ilə bağlı qanunvericilikdə mühüm yeniliklər ediləcək.

Aqrar sektorun inkişafını stimullaşdırmaq məqsədilə kənd təsərrüfatı istehsalçıları, torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azad edilmiş, fiziki şəxslərin əmanətləri üzrə ödənilən faiz məbləğlərindən gəlir vergisinin tutulmasına güzəştlər tətbiq edilmiş və s. bu kimi qanunvericilik müddəaları vergi ödəyicilərinin xeyrinə dəyişdirilmişdir.

Vergi qanunvericiliyində edilmiş dəyişikliklərdə xüsusi diqqət çəkən məsələlərdən biri vətəndaşların gəlirləri ilə bağlıdır. Bu dəyişikliklərə əsasən, fiziki şəxslərin gəlir vergisinin maksimal dərəcəsi 30%-dən 25%-ə endirilmiş, aylıq və illik gəlirlərin 14% dərəcə ilə vergiyə cəlb edilən məbləğləri müvafiq olaraq 2000 manatdan 2500 manatadək və 24.000 manatdan 30.000 manata qədər qaldırılmışdır.

Əlillərin, məcburi köçkün və qaçqınların, əhalinin güzəşt hüququ olan digər kateqoriyalarının maddi vəziyyətinin yaxşılaşdırılması məqsədilə onların aylıq gəlirlərinin vergidən azad olunan məbləğləri 2 dəfəyədək artırılmışdır.

I-II qrup müharibə əlillərinə muzdlu işlə əlaqədar aylıq gəlirinin vergi tutulan məbləğinin 400 manat məbləğində azaldılmasını nəzərdə tutan güzəşt hüququ bütün qruplardan olan müharibə əlillərinə şamil edilmişdir. Fiziki şəxslərin gəlir vergisində edilmiş dəyişikliklər vətəndaşların gəlirlərinin böyük hissəsinin onların sərəncamında qalmasına şərait yaratmaqla yanaşı, əməkhaqlarının leqallaşdırılması istiqamətində aparılan iqtisadi təşviqetmənin tərkib hissəsi hesab edilir.

## Vergi partnyorluğu sazişi vergi orqanı ilə vergi ödəyicisi arasında risklərin minimallaşdırılması məqsədilə könüllü şəkildə bağlanmış niyyət razılaşmasıdır

Tətbiq edilən vergi güzəştləri və imtiyazlar nəticəsində milyonlarla manat vəsait vergi ödəyicilərinin və vətəndaşların sərəncamında qalmış və təbii olaraq sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, vətəndaşların sosial və digər problemlərinin həlli üçün kifayət qədər böyük əhəmiyyət daşımışdır. Vergi güzəştləri nəticəsində vergi ödəyicilərinin və vətəndaşların sərəncamında qalan vəsaitlərin həcminin daha da artacağından xəbər verir.

Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərə əsasən körpələr evləri, körpələr evi-uşaq bağçaları, xüsusi uşaq bağçaları və uşaq evləri 01.01.2014-cü il tarixdən 10 il müddətinə hüquqi şəxslərin mənfəət vergisini və sadələşdirilmiş vergini ödəməkdən azad edilmişlər. Bu güzəşt gələcəkdə ölkəmizdə yeni uşaq bağçalarının, körpələr evlərinin tikilib istifadəyə verilməsinə, fəaliyyətinə stimul verəcək.

Vergi qanunvericiliyinə vergi orqanları ilə vergi ödəyiciləri arasında əməkdaşlıq münasibətlərinin qurulmasını təmin edən normaların daxil edilməsi xüsusi yer tutur. Bu, ölkəmizin təcrübəsində ciddi yenilik hesab olunur. Vergi partnyorluğu sazişi vergi orqanı ilə vergi ödəyicisi arasında risklərin minimallaşdırılması məqsədilə könüllü şəkildə bağlanmış niyyət razılaşmasıdır. Bu, vergi inzibatçılığı prosesində vergi orqanları ilə vergi ödəyicisi arasında münasibətlərin tamamilə yeni əsaslarda qurulması deməkdir. Nazirlər Kabinetinin 2013-cü il 19 iyul tarixli qərarı ilə təsdiq edilmiş «Vergi partnyorluğu sazişinin forması»nın və «Vergi partnyorluğu sazişinin bağlanması qaydaları» bu istiqamətdə işlərin başlanmasına normativ-hüquqi zəmin yaradıb. Vergi partnyorluğu sazişi sahibkarlığa lüzumsuz müdaxilələrin qarşısını almaqla onun inkişafını stimullaşdırmaq, əməkdaşlığa, qarşılıqlı etibarlılığa və şəffaf münasibətlərə əsaslanan birgə fəaliyyəti təmin etmək, müasir idarəetmə alətləri vasitəsilə biznes subyektlərini vergi orqanlarının fəaliyyətinə cəlb etmək, vergilərin ödənilməsi ilə bağlı könüllü əməletmə səviyyəsinin artırılması istiqamətində partnyorluq etmək, ədalətli, çevik, effektiv və səmərəli vergi nəzarəti yaratmaq, vergi risklərini minimallaşdırmaq məqsədi daşıyır.

**Rəşad SADIQOV**

# Vergi Tədris Mərkəzi insan resurslarının inkişafına xidmət edir



Azərbaycan Respublikası Prezidentinin fərmanı əsasında yaradılmış və 2011-ci ildən fəaliyyətə başlayan Vergilər Nazirliyinin Tədris Mərkəzi insan resurslarının inkişaf etdirilməsini, kadrların peşə hazırlığının müasir səviyyəyə yüksəldilməsini daim diqqət mərkəzində saxlayır. Müsahibimiz Tədris Mərkəzinin rəisi Əli Həsənovdur

***- Əli müəllim, rəhbərlik etdiyiniz mərkəzin 5 illik fəaliyyətinə nəzər salanda statistik mənzərə necə görünür?***

- Bu illər ərzində mərkəzdə tədris və təlimin inkişafında müsbət dinamika müşahidə edilir. Məsələn, 2011-ci ildə qısamüddətli təlimlərə 265 nəfər əməkdaş cəlb edilmişdisə, 2015-ci ildə bu rəqəm 1988 olmuşdur. İxtisasartırma kursları üzrə tədris kurslarına 2011-ci ildə 59 nəfər əməkdaş cəlb edilmişdisə, 2015-ci ildə 398 nəfər əməkdaş müxtəlif fəaliyyət istiqamətləri üzrə kurslarda iştirak etmişdir. Stajçı əməkdaşların sayında azalma olmuşdur, bu göstərici 2011-ci ildə 149 nəfərdən 2015-ci ildə 126 nəfərə enmişdir.

Vergi orqanı əməkdaşları üçün tədrisin kifayətlilik göstəricisi kimi bir təqvim ili ərzində bir orta statistik vergi işçisinə düşən tədris günlərinin sayı əsas götürülür. 2015-ci ildə Tədris Mərkəzi tərəfindən təşkil edilən təlimlər üzrə kifayətlilik göstəricisi 7,1 adam-gün (fond hesabına saxlanılan müfəttişlər nəzərə alınmadan) olmuşdur. Müqayisə üçün qeyd edək ki, 2011-ci il ərzində həmin göstəricinin illik qiyməti 3,2, 2012-ci ildə 3,7, 2013-cü ildə 4,7, 2014-cü ildə isə 7,2 adam-gün olmuşdur. 2016-cı ilin birinci yarımilliyi ərzində bu göstərici 4 adam-gün olmuşdur.

***- Tədris Mərkəzi həm də nazirlik miqyasında keçirilən iri tədbirlərin ünvanıdır...***

- Tədris Mərkəzində aparılmış yenidənqurma işlərindən sonra burada müxtəlif tədbirlər keçirilmişdir. 2015-ci il iyunun 5-də «Azərbaycanın davamlı inkişafında vergi siyasətinin rolu» mövzusunda elmi-praktiki konfrans keçirilmişdir. Yenə həmin il 9-11 sentyabr tarixlərdə nazirliyimizin Avropadaxili Vergi Administrasiyaları Təşkilatı (IOTA) ilə əməkdaşlığı çərçivəsində «Vergi üzrə Peşəkar Təlim və İnkişaf Forumu» keçirilmişdir. Forumda Azərbaycan daxil olmaqla 26 ölkənin 50-yə yaxın nümayəndəsi iştirak etmişdir.

«İnsan resurslarının inkişafı sahəsində Azərbaycan Respublikasının Vergilər Nazirliyinə dəstək» Tvinninq layihəsi çərçivəsində Vergilər Nazirliyinin Tədris Mərkəzində 2-4 noyabr və 5-6 noyabr 2015-ci il tarixlərdə «Heyətin idarə edilməsi» mövzusunda təlim keçilmişdir.

Bu ilin aprel ayında Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Rəyasət Heyətinin, AMEA-nın Tarix İnstitutunun, Türkiyə Cümhuriyyəti Atatürk Araşdırma Mərkəzinin və Şamaxı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə «Azərbaycan və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914-1920-ci illər)» mövzusunda III Beynəlxalq elmi konfransı Tədris Mərkəzində davam etdirilmişdir.

«İnsan resurslarının inkişafı üzrə Azərbaycan Respublikası Vergilər Nazirliyinə dəstək» Tvinninq Layihəsi çərçivəsində Tədris Mərkəzinin əməkdaşları üçün 19-21 aprel 2016-cı il tarixlərdə «Təlimçilər üçün təlim» mövzusunda təlim keçilmişdir.

Vergilər nazirinin əmri ilə təsdiq edilmiş «2013-2020-ci illərdə Vergi sisteminin İnkişaf Strategiyası»nda əsas strateji məqsədlərdən biri kimi bələdiyyələrə yerli vergilərin və ödənişlərin düzgün hesablanması, tam və vaxtında ödənilməsi, habelə vergi qanunvericiliyinə tam və dəqiq riayət edilməsi sahəsində metodiki rəhbərlik edilməsi nəzərdə tutulmuşdur. Bələdiyyələrin Vergi İnformasiya Sistemi proqram təminatından istifadə ilə bağlı biliklərinin artırılması və bu sahədə qarşılaşdıqları problemlərin həlli məqsədilə, proqramın tətbiq edildiyi bələdiyyələrin nümayəndələri ilə 4-5 iyul 2016-ci il tarixlərdə «Yerli (bələdiyyə) vergilərin və ödənişlərin hesablanması və ödənilməsi. Bələdiyyələrin Vergi İnformasiya Sistemində iş prosedurları» mövzusunda təlim keçilmişdir.

Azərbaycan Respublikası Prezidentinin «Dövlət orqanlarının elektron xidmətlər göstərilməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» 23 may 2011-ci il tarixli fərmanından irəli gələn vəzifələrin yerinə yetirilməsi məqsədilə 2 iyul 2016-cı il tarixdə «AVİS-in müvafiq bölməsindən istifadə qaydaları» mövzusunda icra məmurları üçün təlim təşkil edilmişdir...

***- Vergi təlim və tədris prosesinin təkmilləşdirilməsi üçün nə kimi tədbirlər görülür?***

- Vergilər nazirinin 18 mart 2016-cı il tarixli əmri ilə təsdiq edilmiş «Vergi orqanı əməkdaşlarının və vergi orqanlarına işə qəbul olunan şəxslərin sahələr üzrə sertifikatlaşdırılması barədə Tədbirlər Planı»nda sahələr üzrə təlim proqramlarının, proqrama daxil ediləcək mövzular üzrə təlim materiallarının və test bazasının hazırlanması kimi tapşırıqların icra edilməsi nəzərdə tutulmuşdur.

Tədris Mərkəzinin Vergilər Nazirliyinə müraciəti əsasında təqdim edilmiş qrafikə uyğun olaraq mütəxəssislər cəlb edilmiş, test bazası tamamilə yenilənmiş və ekspertizası keçirilmişdir.

«Dövlət vergi orqanlarının vəzifəli şəxslərinin peşə hazırlığının təşkili Qaydaları»na əsasən, AVİS-in «Tədris» altsistemi və Vergilər Nazirliyinin «E-Kitabxana» altsisteminin «E-öyrənmə» bölməsi üzrə dəyişikliklər edilməsi də nəzərdə tutulmuşdur.




Keçən ay təsdiqlənmiş «Vergilər Nazirliyinin Tədris Mərkəzinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı Tədbirlər Planı»nda tədris fəaliyyətinin təkmilləşdirilməsi, maddi-texniki təchizatın gücləndirilməsi və sosial təminatın yaxşılaşdırılması məsələləri üzrə bir sıra tədbirlərin reallaşdırılması nəzərdə tutulur.

***- Mərkəzdə təşkil edilən tədris kurslarının ümumi nəticələri haqqında nə deyə bilərsiniz?..***

- Vergilər nazirinin 13 may 2016-cı il tarixli əmri ilə təsdiq edilmiş «Dövlət vergi orqanlarının vəzifəli şəxslərinin peşə hazırlığının təşkili qaydaları» dövlət vergi orqanlarının vəzifəli şəxslərinin, habelə dövlət vergi orqanlarına staj və sınaq müddətinə qəbul edilmiş şəxslərin peşə hazırlığının planlaşdırılmasını, təşkilini və nəticələrinin qiymətləndirilməsi prosedurlarını müəyyən edir.

Mərkəzdə tədris kursları iki hissədən: ixtisasartırma təhsili və qısamüddətli təlimlərdən ibarətdir. İxtisasartırma təhsili peşə fəaliyyətinin ümumi əsasları; ixtisas sahələri (fəaliyyət sahələri); innovasiyalar kimi təlim modulları üzrə həyata keçirilir.

Qısamüddətli təlimlər Vergilər Nazirliyinin struktur vahidləri və bölmələrinin müvafiq struktur vahidinə müraciəti, eləcə də müvafiq struktur vahidin təşəbbüsü ilə təlimin gündəliyi əsasında Nazirliyin elektron kitabxanasının «Onlayn təlim» sistemində və ya Tədris Mərkəzində təşkil edilir.

Bu günə qədər «Peşə fəaliyyətinin ümumi əsasları» təlim bloku üzrə 3 təlim kursu təşkil edilmiş və bu təlimlərə 60 nəfər stajçı əməkdaş cəlb edilmişdir.

İxtisas sahələri (fəaliyyət sahələri) modulunun məqsədi əməkdaşların fəaliyyət sahələri üzrə bilik və peşə hazırlığı səviyyəsinin yüksəldilməsini və təkmilləşdirilməsini təmin etməkdir.

«Dövlət vergi orqanlarında icra intizamına nəzarət və kargüzarlıq işinin təşkili» və «Vergi öhdəliklərinin müəyyənləşdirilməsi və icrasına nəzarət işlərinin təşkili» ixtisas (fəaliyyət) sahələri üzrə iki ixtisasartırma təlimi keçilmişdir və bu təlimlərə 24 nəfər dövlət vergi orqanı əməkdaşı cəlb edilmişdir.

Müvafiq fəaliyyət sahəsi üzrə təlimlər ixtisasartırma təhsilinin «İxtisas sahələri üzrə təlim modulu» çərçivəsində təşkil edilir.

«İnnovasiya»lar təlim prosesində yeni istiqamətdir. Əsas məqsəd əməkdaşların daim dəyişən və yeniləşən iş şəraitinə uyğunlaşmasını, yeniliklərin mənimsənilməsini, idarəetmə qabiliyyətlərinin yüksəldilməsini, yeni texnologiyalar və texniki vasitələrlə iş vərdişlərinə yiyələnməsini təmin etməkdir.

Bu istiqamətdə təlimlərin təşkil edilməsi məqsədilə Nazirliyin müxtəlif strukturlarından təkliflər daxil olmuşdur. İlk təlim 18-19 avqust 2016-cı il tarixdə keçilmişdir və ilin sonuna qədər daha bir-neçə təlim təşkil olunacaq.

***- Hazırda əməkdaşların sertifikatlaşdırılması ilə bağlı təlimlər aparılır. Bu sahədə vəziyyət necədir?***

- 2016-cı il ərzində bu günə qədər sertifikatlaşdırılma ilə əlaqədar operativ vergi nəzarəti, vergi ödəyicilərinin uçotu və qeydiyyatı, vergi borclarının alınması, vergi auditi, vergi cinayətlərinin ibtidai araşdırılması və bəyannamələrin kameral yoxlanılması sahələri üzrə Vergilər Nazirliyinin elektron kitabxanasında «Vergi qanunvericiliyi» təlim bloku üzrə 16 onlayn təlim keçilmiş, bu təlimlərə 374 nəfər dövlət vergi orqanı əməkdaşı cəlb edilmişdir.

Bu təlim bloku sertifikatlaşdırılma prosesinin birinci mərhələsidir. İlk mərhələni uğurla keçən əməkdaşlar müvafiq fəaliyyət sahələri üzrə «Vergi inzibatçılığı» təlim bloku üzrə ikinci mərhələyə dəvət edilirlər. Birinci mərhələdən uğurla keçmiş 146 nəfər ikinci mərhələyə təlimlərə cəlb olunmuşdur.

Hər iki mərhələni uğurla keçmiş 125 nəfərə üç dərəcə üzrə sertifikatlar verilmişdir. 50 nəfər əməkdaş birinci dərəcəli sertifikat almışdır.

***- Tədris prosesində istifadə olunan təlim metodları və onların fərqləndirici xüsusiyyətləri hansılardır?***

- Təlim prosesində passiv, aktiv və interaktiv təlim metodlarından istifadə olunur. Mərkəzdə ən geniş yayılmış «açıq səma», «konkret halların təhlili», «kiçik qruplarda (komandada) iş, «beyin həmləsi», «rollar və işgüzar oyunlar», «debat», «diskussiya», «sual-cavab», «təcrübə əsasında öyrənmə» və «dəyirmi masa» kimi təlim metodlarından geniş istifadə edilir.

Hər bir metodun özünəməxsus xüsusiyyəti var. Mühazirə və praktiki məşğələlər zamanı mövzunun xüsusiyyətindən asılı olaraq metodlar seçilir və tətbiq edilir. Yay ayları olduğu üçün «açıq səma» metodundan geniş istifadə edilir.

***- Vergi sistemində tədrisin keyfiyyəti necə müəyyənləşdirilir? Son dövrlər tətbiq olunan ilkin və yekun qiymətləndirmənin nəticələri barədə nə deyə bilərsiniz?***

- Təlimlərin qiymətləndirilməsi iki mərhələdə aparılır. Birinci mərhələdə kursun bitməsindən sonrakı həftə ərzində iş yerində dinləyicilərin təlimdən məmnunluq səviyyəsinin qiymətləndirilməsi üçün sorğunun aparılması nəzərdə tutulur. Bu mərhələdə dinləyicilərin təlimin təşkili, təlim materialları, biliklərin qiymətləndirilməsi və təlimçilərin təlim qabiliyyətləri barədə rəyləri və təklifləri öyrənilir.

İkinci mərhələ təlimdən altı ay sonra aparılır. Bu mərhələdə təlimin nəticələrinin ümumi fəaliyyətə təsirinin qiymətləndirilməsi üçün təlim prosesində verilən biliklərin dinləyicilərin və struktur vahidinin fəaliyyət nəticələrinə təsirinin qiymətləndirilməsi, eləcə də təlimlərin təkmilləşdirilməsinə dair təkliflərin alınması məqsədilə həm dinləyicilər, həm də onların birbaşa rəisləri (şöbə və bölmə rəisləri) arasında sorğuların aparılması nəzərdə tutulur.

«Peşə fəaliyyətinin ümumi əsasları» və «İxtisas sahələri (fəaliyyət sahələri)» üzrə keçilən hər təlim prosesi zamanı dinləyicilərin bilik və peşə hazırlığı səviyyəsinin ilkin və yekun qiymətləndirilməsi aparılır.

***- Ənənəvi son sual: Tədris Mərkəzinin qarşısında duran əsas məsələlər, yeni layihələr?..***

- İlk növbədə, sertifikatlaşdırma təlimlərini uğurla başa çatdırmaq, vergi sisteminə peşəkar kadrların verilməsi istiqamətində tədbirləri həyata keçirmək niyyətindəyik. İxtisas (fəaliyyət) sahələri üzrə, peşə fəaliyyətinin ümumi əsasları üzrə təlimləri də davam etdiririk. Büdcədənkənar fond hesabına saxlanılan müfəttişlər üç günlük əyani təlimlərə cəlb edilir.

Vergilər Nazirliyi əməkdaşlarının peşə hazırlığı prosesində elektron təhsil (e-learning) sisteminin tətbiq edilməsi məqsədilə oktyabrın 7-də «Vergi sahəsində kadr hazırlığı: problemlər və perspektivlər» mövzusunda dəyirmi masa keçirməyi nəzərdə tuturuq.

«Vergi sisteminin inkişafı üzrə 2013-2020-ci illər üçün Strateji Plan»da əsas istiqamətlərdən biri Tədris Mərkəzinin bazasında Regional Tədris Akademiyasının yaradılmasıdır.

Azərbaycan Respublikası Prezidentinin «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» 4 avqust 2016-cı il tarixli Sərəncamında nəzərdə tutulan istiqamətlər üzrə yerli və beynəlxalq strukturlarla əməkdaşlıq, mütəmadi olaraq yerli və beynəlxalq ekspertləri cəlb etməklə əməkdaşların fəaliyyət sahələrinə uyğun olaraq təlimlərin təşkili, vergi ödəyiciləri ilə görüşlərin təşkili və onları maraqlandıran mövzular üzrə təlimlərin təşkil olunması, vergi sisteminin inkişafı və hüquqi təminatına dair aktual elmi-tədqiqat və araşdırma işlərinin aparılması nəzərdə tutulur. Həmçinin yerli və beynəlxalq əhəmiyyətli tədbirlərin təşkili, işə qəbul prosesində sual bazasının hazırlanması, təlim tələbatlarının öyrənilməsi, metodiki kabinetlərin ehtiyaclarının öyrənilməsi və onların təminatı, tədris prosesinin tam avtomatlaşdırılması, təlimçilərin seçilməsi və onlara təlimlərin keçilməsi, vergi siyasətinin təkmilləşdirilməsi ilə əlaqədar qəbul edilmiş yeniliklər üzrə innovativ təlimlərin təşkili («Tax free» sisteminin tətbiqi, risklərin idarə edilməsi, e-audit sisteminin tətbiqi və s.), infrastrukturun yenilənməsi və s. istiqamətlərdə tədbirlər planlaşdırılıb.

***Müsahibəni hazırladı:***
**F. İKRAMQIZI**

# ASAN radio ilə əməkdaşlığın əsas məqsədi vətəndaşları maarifləndirməkdir

ASAN radionun direktoru Emin Musəvi bildirib ki, radio Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin əhatə etdiyi bütün qurumlarla əməkdaşlıq etməyi planlaşdırıb. Vergilər Nazirliyinin bütün yenilikləri, sərəncam və dəyişiklikləri haqqında dinləyicilərə geniş və daha aydın məlumat vermək üçün sentyabr ayından ASAN radio dalğalarında yeni veriliş yayımlanacaq. Məlumatlar, fikirlər səsləndiriləcək və mütəxəssis rəyi vasitəsilə dinləyicilərə çatdırılacaq.

Azərbaycan Respublikasının Prezidentinin «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» 4 avqust 2016-cı il tarixli sərəncamı ilə bağlı ASAN radionun rəhbərliyi Vergilər Nazirliyinin rəhbər vəzifəli şəxsləri ilə görüşlər keçirərək sərəncamdan irəli gələn müxtəlif istiqamətlərə və məsələlərə aydınlıq gətirməyə çalışıb, bu açıqlamalar xüsusi çarxlarla, rakatsiya stilində, yəni gün ərzində təkrarlanaraq radio efirində səsləndirilib. Bu da vətəndaşların yenilikləri sırf nazirlik əməkdaşlarının dilindən eşidərək konkret istiqamətlər üzrə dəyişiklikləri, aparılan islahatları və bunun gələcək nəticələrini anlamasına kömək göstərib.

E.Musəvi deyib: «Dövlət xidmətləri sahəsində ixtisaslaşan ilk regional radio olaraq bizim məqsədimiz ayrı-ayrı qurumlarla, dövlət xidmətləri ilə iş birliyi quraraq maraqlı, faydalı məlumatları qısa, lakonik şəkildə dinləyicilərə çatdırmaqdır.

Azərbaycan efirində dövlət qurumlarının fəaliyyəti, həyata keçirilən layihələr, aparılan islahatlarla bağlı məlumatlandırma o qədər də yüksək səviyyədə deyil. Baş verən dəyişikliklərlə, qəbul olunan qərarlarla bağlı tək bir reportaj və xəbər buraxılışı ilə vətəndaşlara nəsə çatdırmaq qeyri-mümkündür. Biz bütün informasiyaları cəmiyyətə ən sadə, vətəndaşın başa düşdüyü dildə çatdırıb, faydalı tərəflərini söyləməklə önəmli, prioritet məsələlərə toxunmaq və onların mahiyyətini açmaq istəyirik. Çox fəal, aktiv qurumlar var ki, orada informasiya axını da yüksəkdir. Bu siyahıda Vergilər Nazirliyini ön cərgəyə qoymaq olar. Ona görə də qərara gəldik ki, nazirliklə birlikdə vətəndaşları maraqlandıran sualları cavablandırmaq üçün maraqlı bir veriliş ərsəyə gətirək».

E.Musəvi qeyd edib ki, radio yaranan gündən ilk qonaqları sırasında Vergilər Nazirliyinin də nümayəndələri olub: «Nazirliyin səlahiyyətli nümayəndələri açıq dialoqa daim hazır olduqlarını bildiriblər. Çox maraqlı formatda verilişlərimiz olub və bu ənənə davam etməkdədir. Həm canlı yayımda, həm də informasiya lenti vasitəsilə insanları məlumatlandırmağı prioritet seçərək yeni mövsümə də vergi qanunvericiliyinin, inzibatçılığının təkmilləşdirilməsi baxımından maraqlı, faydalı verilişlər hazırlamağı düşünürük.

Vergilər Nazirliyinin rəhbər nümayəndələri ilə görüşlər zamanı radio efirində interaktivlik artır. Dinləyicilər zəng edirlər, sosial şəbəkələr vasitəsilə mesajlar göndərir, onları maraqlandıran suallara cavablar axtarırlar. Dəyişikliklər vergi sahəsinə aidiyyəti olan hər kəsə - istər böyük sahibkarlıqla , istərsə də kiçik bizneslə məşğul olanlara aid edilir. Ona görə də bu məsələ həmişə aktualdır».

Vergi mədəniyyətini yüksəltmək, könüllü əməletmə prinsipləri aşılamaq baxımından da belə verilişlərin əhəmiyyəti böyükdür. Nümunəvi vergi ödəyiciləri ilə bağlı meyarların müəyyənləşdirilməsi istiqamətində atılacaq addımlar da dinləyiciləri maraqlandıra bilər. E.Musəvi artıq hər şeyi dövlətdən gözləməyin dövranının keçdiyini qeyd edib. «Artıq sən özün də düşünməlisən ki, mən dövlətə nə kimi töhfələr verə bilərəm. Bütün bu məsələlər öz həllini sağlam, mütərəqqi və proqressiv formada tapmalıdır. Bu prosesdə, əlbəttə, həm cəmiyyətin rolu böyükdür, həm də fərdi olaraq hər bir kəsin iştirakı vacibdir».

E.Musəvi bildirib ki, yaranan suallara Vergilər Nazirliyindən dərhal, operativ cavablar gəlir: «Məsələn, «Tax free» sisteminin hava limanından başqa digər sərhəd buraxılış məntəqələrində də tətbiq ediləcəyi ilə bağlı məsələni Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin Vergi siyasəti idarəsinin rəisi Nicat İmanov şərh edib. Artıq radio dinləyiciləri bununla bağlı qanunvericilikdə müvafiq dəyişikliklərin edilməsi üçün qanun layihəsi hazırlandığından, proqram təminatı və vahid elektron məlumat bazası yaradıldıqdan, onun vergi və digər aidiyyəti dövlət orqanlarının, habelə müvəkkil bankın (bankların) istifadəsində olan elektron informasiya sistemlərinə inteqrasiyası təmin edildikdən sonra sistemin bütün sərhəd-buraxılış məntəqələrində qurulmasının hissə-hissə həyata keçiriləcəyindən xəbər tutdular».

Yarandığı az zaman ərzində ölkə vətəndaşlarının rəğbətini qazanan ASAN xidmət- Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində 2015-ci il dekabrın 24-də ASAN radio 100.0 MHz tezliyi ilə sınaq yayımına başlayıb. Azərbaycan dilində yayımlanan radionun fəaliyyəti agentliyin İnformasiya təminatı şöbəsi tərəfindən həyata keçirilir. ASAN radionun formalaşdırılmasında Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi iştirak edib.

**FƏXRİYYƏ**

Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi vergi ödəyicilərinin suallarına cavab verir

# Torpaq və üzərindəki tikilinin alınması zamanı vergi öhdəlikləri

***ƏDV qeydiyyatında olan hüquqi şəxsin balansında olan tikilinin 1 yanvar 2016-cı il tarixinədək dövlət ehtiyacları üçün alınması zamanı hansı vergi öhdəlikləri yaranır?***

Azərbaycan Respublikasının «Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında» Qanununun ƏDV qeydiyyatında olan hüquqi şəxsin balansındakı 1.1.3-cü maddəsində göstərilmişdir ki, tikili torpaqla möhkəm bağlı olub təyinatına tənasübsüz zərər vurulmadan yerinin dəyişdirilməsi mümkün olmayan bütün əmlak, o cümlədən binalar, qurğular, yaşayış və qeyri-yaşayış sahələri, bağ evləri, divar, hasar, yarımçıq (inşası başa çatdırılmamış) tikili və bu kimi digər obyektlərdir.

Vergi Məcəlləsinin (VM) 13.2.10-cu maddəsinə əsasən malların təqdim edilməsi - mallar üzərində mülkiyyət hüququnun başqasına verilməsi, o cümlədən, lakin bunlarla məhdudlaşdırılmayan malların satışı, mübadiləsi, hədiyyə verilməsi, natura şəklində əmək haqqı ödənilməsi və natura şəklində digər ödəmələr, həmçinin girov qoyulmuş mallar üzrə mülkiyyət hüququnun girov saxlayana və ya digər şəxsə keçməsidir.

«Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən hüquqi şəxslərə ödənilən kompensasiya mənfəət vergisindən azaddır (VM, maddə 106.1.16).

Malların təqdim edilməsi, işlərin görülməsi, xidmətlərin göstərilməsi və vergi tutulan idxal ƏDV-nin vergitutma obyektidir (VM, maddə 159.1).

Vergidən azad edilən malların göndərilməsindən, işlərin görülməsindən və xidmətlərin göstərilməsindən başqa, müstəqil sahibkarlıq fəaliyyəti və ya hüquqi şəxs yaratmadan birgə sahibkarlıq fəaliyyəti çərçivəsində Azərbaycan Respublikasının ərazisində malların göndərilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsi ƏDV tutulan əməliyyatlar sayılır (VM, maddə 159.2).

ƏDV tutulan əməliyyatın dəyəri vergi ödəyicisinin müştəridən və ya hər hansı digər şəxsdən aldığı, yaxud almağa hüququ olduğu haqqın ƏDV nəzərə alınmadan məbləği (hər hansı rüsumlar, vergilər və ya başqa yığımlar da daxil olmaqla) əsasında müəyyən edilir (VM, maddə 161.1).

**Qeyd edilənlərə əsasən:**

ƏDV qeydiyyatında olan hüquqi şəxsin balansındakı tikililərin dövlət ehtiyacları üçün alınması zamanı həmin şəxslərə ödənilən kompensasiya mənfəət vergisindən azaddır.

Bununla yanaşı, həmin hüquqi şəxsin balansında olan aktivin dövlət ehtiyacları üçün təqdim edilməsinə Vergi Məcəlləsinin müddəalarına uyğun olaraq ƏDV tətbiq edilir.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2013-cü ilin avqust və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2016-cı ilin avqust və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə (www.taxes.gov.az/www.taxes/faq/sual.html) və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

**Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi**




# Elektron qaimə-faktura e-auditin işini yüngülləşdirəcək

Prezident İlham Əliyevin «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında sərəncamında bildirilir ki, vergi orqanlarının yaranmasından ötən dövr ərzində aparılmış genişmiqyaslı islahatlar, reallaşdırılmış kompleks tədbirlər və konkret hədəflərə yönəlmiş proqramlar nəticəsində ölkəmizdə müasir beynəlxalq standartlara cavab verən vergi xidmətinin formalaşdırılmasına nail olunmuş, Azərbaycan Respublikasında çevik və səmərəli vergi siyasətinin həyata keçirilməsi üçün vahid qanunvericilik bazası yaradılmış və qabaqcıl ölkələrin vergi qanunvericiliyi ilə uzlaşdırılmışdır. Azərbaycanın vergi sistemi dünyanın qabaqcıl ölkələrində tətbiq olunan əksər vergi xidmətlərini vergi ödəyicilərinə təqdim edir. Hazırda Vergilər Nazirliyi vergi ödəyicilərinə 62 növ elektron xidmət göstərir və vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın və şəffaflığın daha da artırılması, sahibkarlara əlverişli şəraitin yaradılması və ölkə iqtisadiyyatının davamlı inkişaf tempinə uyğun olaraq real vergi potensialının müəyyən edilməsi üçün vergi sistemində islahatların davam etdirilməsi və vergi inzibatçılığının daha da təkmilləşdirilməsi zəruridir.

Sərəncamda əksini tapan mühüm vergi yenilikləri içərisində vergi ödəyiciləri tərəfindən aparılan əməliyyatlarda elektron qaimə-faktura sisteminin tətbiqi məsələsi də var. Artıq malların yüklənməsi və göndərilməsi elektron sistemdə öz əksini tapacaq. Əvvəl vergi orqanı daxil olan pulları banklar vasitəsilə izləyə bilirdilər. Yəni vergi hesab-fakturası tətbiq olunurdu ki, bu da Azərbaycan Respublikasının Vergi Məcəlləsinə və «Mühasibat uçotu haqqında» Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 2 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi haqqında qaydalar»ına uyğun olaraq hazırlanmış və əlavə dəyər vergisi və aksiz vergisinin məqsədləri üçün vergi hesab-fakturalarının sifarişi, uçotu, tətbiqi və doldurulması qaydalarını müəyyənləşdirirdi.

**Elektron qaimə-fakturanın tətbiqi nəticəsində vergi orqanları malın hərəkətinə nəzarət əldə edəcək**

Azərbaycan Respublikası Prezidentinin «Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» 23 may 2011-ci il tarixli 429 nömrəli Fərmanına əsasən modern və çevik idarəetmənin təmin edilməsi, dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması və korrupsiyaya şərait yaradan halların aradan qaldırılması sahəsində görülən işlərin davamı olaraq əhaliyə elektron xidmətlərin göstərilməsi məqsədilə elektron qaimə-fakturanın forması, tətbiqi, uçotu və istifadəsi qaydaları və bunların təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərar layihəsi hazırlanmışdır.

Elektron qaimə-fakturanın tətbiqi nəticəsində vergi orqanları malın hərəkətinə də nəzarət əldə edəcək ki, bu da şəffaflığı artıraraq, elektron auditin işini yüngülləşdirəcək. Elektron qaimə-fakturanın tətbiqinin əsas üstünlüyü onun Azərbaycan Respublikası Vergilər Nazirliyinin rəsmi internet saytının İnternet Vergi İdarəsində yaradılmış elektron qaimə-faktura sistemində hazırlanmasından ibarətdir.

Layihəyə əsasən elektron qaimə-fakturalara seriya və nömrələrin Azərbaycan Respublikası Vergilər Nazirliyində tətbiq edilən Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi (AVİS) vasitəsilə avtomatik verilməsi eyni seriya və nömrənin təkrarlanmasının qarşısını alır və ümumiyyətlə elektron qaimə-fakturaların uçotunun aparılmasını asanlaşdırır.

Elektron qaimə-fakturanın tətbiqinin digər bir üstünlüyü isə qaimə-fakturaların mətbəələrdə sifariş edilməsi və hazırlanması ilə əlaqədar olaraq mətbəə xərclərinin və vaxt itkisinin azaldılmasından ibarətdir.

Beləliklə, qeyd olunan layihənin tətbiqi nəticəsində heç bir mətbəəyə müraciət etmədən, əlavə vaxt itkisinə yol vermədən, birbaşa internet vasitəsilə real vaxt rejimində elektron qaimə-fakturanı hazırlayıb malın (işin, xidmətin) alıcısına təqdim etmək mümkündür.

**Fəxriyyə İKRAMQIZI**

# Vergilər Nazirliyi hesabatlılığın və şəffaflığın təmin olunmasında yüksək nəticələr əldə edib

«Şəffaflıq Azərbaycan» İctimai Birliyi tərəfindən təqdim olunan «Açıq hökumətin təşviqi üzrə milli fəaliyyət planı»nın monitorinq hesabatında vergi orqanlarının fəaliyyəti yüksək qiymətləndirilib. Hesabatın «Vergi nəzarəti və yoxlamaları prosesində şəffaflığın artırılması» bölümündəki təhlillərində Vergilər Nazirliyinin maksimum nəticələr əldə etdiyi qeyd olunub. «Vergi ödəyicilərinin zəruri məlumatla təmin edilməsi və vergi ödəyiciləri ilə təbliğat işinin təkmilləşdirilməsi» istiqaməti üzrə müəyyən edilib ki, 2012-2015-ci illərdə vergi ödəyicilərinin zəruri məlumatla təmin edilməsi ilə bağlı tədbirlər tələb olunan səviyyədə həyata keçirilib. 2012-ci ildə vergi qanunvericiliyi və vergi inzibatçılığı sahəsində vergi ödəyiciləri üçün zəruri informasiyanı əks etdirən 15 adda kiçik həcmli bukletlər, o cümlədən nağdsız ödənişlərin üstünlüklərini, ödəniş kartları və POS-terminallardan istifadə qaydalarını özündə əks etdirən Azərbaycan və ingilis dillərində buklet nəşr etdirilərək vergi ödəyicilərinə çatdırılıb. Bundan başqa, «Azərbaycan Respublikası ərazisində POS-terminalların quraşdırılması, istifadəsi və tətbiqi Qaydaları»na uyğun yeni kitabça və «Nəzarət-kassa aparatı və ciddi hesabat blanklarının tətbiqi xüsusiyyətləri» adlı yeni buklet çap olunaraq sahibkarlara təqdim edilib. Respublika ərazisində nağdsız ödənişlərin, eləcə də POS-terminallardan istifadənin genişləndirilməsi məqsədilə iri ticarət mərkəzlərində «Sürətli keçid üçün nağdsız ödəyin!» layihəsinin tətbiqinə başlanılıb.

Hesabat müəllifləri vergi borclarının ödənilməsi və əmək müqavilələrinin ödənilməsi parametri üzrə görülən işlərə də maksimum rəy veriblər. Ekspertlər Vergilər Nazirliyinin müxtəlif mövzular üzrə apardığı maarifləndirmə kampaniyalarının, xüsusilə əmək müqavilələrinin bağlanmasının zəruriliyinə aid təbliğat xarakterli materialların yayılmasının əhəmiyyətini vurğulayıblar. Bakı şəhərində və digər ərazilərdə, o cümlədən yol kənarlarında, iri ticarət mərkəzlərində əmək müqavilələrinin bağlanmasının zəruriliyi mövzusunda hər ay orta hesabla 90 reklam lövhəsi, eləcə də videoçarxlar nümayiş etdirilib və bu işlər davam etdirilir. «Azərişıq» ASC-nin əhaliyə verdiyi bildirişlərin arxa səhifəsində, həmçinin aviabiletlərin üzərində əmək müqaviləsinin bağlanmasının zəruriliyi barədə reklamların yerləşdirilməsi təbliğat sahəsində səmərəli yenilik kimi dəyərləndirilib.

Hesabatın «Vergi ödəyicilərinə xidmət işinin təşkili» ilə bağlı bölməsində qeyd olunub ki, 2014-cü ilin fevral ayında vergi ödəyicilərinə xidmət məqsədilə xidmət strukturlarına Vergilər Nazirliyinin loqotipini əks etdirən 40 avtomobil ayrılıb. Avtomobillərdən sənəd dövriyyəsinin təşkilində, ünvanlı (səyyar) xidmətin göstərilməsində, xüsusilə də POS-terminalların tətbiqi ilə əlaqədar xidmətin göstərilməsində, vergi ödəyiciləri və bələdiyyələrlə keçirilən görüşlərdə, «Vergi dostları» şəbəkəsinin üzvləri ilə məktəblərdə keçirilən tədbirlərdə, həmçinin reklam və təbliğat işlərində istifadə olunur.

**Vergilər Nazirliyinin fəaliyyətinin qiymətləndirilməsinə dair əsas parametrlər:**

- Vergi ödəyicilərinin zəruri məlumatla təmin edilməsi və vergi ödəyiciləri ilə təbliğat işinin təkmilləşdirilməsi;
- Vergi orqanlarının fəaliyyətində şəffaflıq indeksi;
- Vergilərin və digər icbari ödənişlərin elektron qaydada ödənilməsinin təkmilləşdirilməsi.

«Şəffaflıq Azərbaycan» İctimai Birliyinin hesabatında Vergilər Nazirliyinin internet resurslarının zənginliyi və dinamikliyi göstərilib. Qeyd olunub ki, nazirliyin internet səhifəsində (ziyarətçilərinin sayı bir il ərzində 3 milyondan çox olur) zəruri məlumatlar və izahedici vəsaitlər yerləşdirilib. Vergi ödəyiciləri üçün onlayn sual-cavab bölməsi yaradılıb, məlumatların SMS vasitəsilə çatdırılması təmin edilib.

Hesabatda digər bir parametr - vergi orqanlarının fəaliyyətində şəffaflıq indeksinə də xüsusi yer verilib. Ekspert qrupunun rəyinə əsasən, vergi orqanları öz fəaliyyətini Beynəlxalq Valyuta Fondunun (BVF) «Vergi şəffaflığı üzrə yaxşı praktika haqqında kodeksi»nə uyğunlaşdırmaq sahəsində mühüm addımlar atıb. Kodeksin müddəalarının vergi orqanlarının fəaliyyətində və aidiyyəti normativ-hüquqi aktlarda nəzərə alınması və nazirliyin səlahiyyətlərinə aid müddəaların yerinə yetirilməsi, eyni zamanda hesabat ilində BVF tərəfindən bu sənədə əlavə və dəyişikliklərlə bağlı layihənin hazırlanması barədə ictimaiyyətə açıqlama verilib. Layihə ilə bağlı verilən rəy və təkliflərə əsasən, sənədin yekun variantı hazırlanaraq Beynəlxalq Valyuta Fondunun İcraiyyə Şurasına təqdim edilib.

Vergilər Nazirliyinin vergilərin və digər icbari ödənişlərin elektron qaydada ödənilməsinin təkmilləşdirilməsi sahəsində gördüyü işlərə də hesabatda yüksək qiymət verilib. Bildirilib ki, dövlət rüsumu üzrə ödənişlərin nağdsız qaydada aparılması «Hökumət ödəniş portalı»na inteqrasiya olunub. Vergi ödəyicilərinin ƏDV depozit hesabı vasitəsilə ƏDV faizləri üzrə borcunun yarandığı təqdirdə, məbləğin subuçot hesabından avtomatik büdcəyə silinməsi üçün İnternet Vergi İdarəsində müvafiq imkan yaradılıb.

Vətəndaş cəmiyyətinə, biznes strukturlarına göstərilən elektron xidmətlərin çeşidinin və həcminin artırılması sahəsində bir sıra zəruri tədbirlər görülüb, nazirliklə Mərkəzi Bankın birgə həyata keçirdikləri işlər nəticəsində vergi və rüsumların elektron ödəniş sistemi yaradılıb. POS-terminalların tətbiqinin genişləndirilməsinə nəzarətin təşkili, o cümlədən POS-terminallarla əlaqədar bildirişlərin hazırlanması və göndərilməsi ilə bağlı nazirliyin müvafiq proqram təminatında təkmilləşdirmə işləri aparılıb.

**Elbrus CƏFƏRLİ**

# Ticarət dövriyyəsində müsbət saldo

Yanvar-iyun aylarında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 163 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirib, 100 ölkəyə məhsul ixrac olunub, 154 ölkədən isə idxal edilib.

Dövlət Statistika Komitəsindən «Fins.az»a bildirilib ki, gömrük orqanlarında qeydiyyatı aparılan, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla bu ilin yanvar-iyun aylarında xarici ticarət dövriyyəsi 10 milyard 325,9 milyon dollar, o cümlədən ixracın dəyəri 6 milyard 278,7 milyon dollar, idxalın dəyəri 4 milyard 47,2 milyon dollar təşkil edib. Nəticədə 2 milyard 231,5 milyon dollarlıq müsbət ticarət saldosu yaranıb.

Ticarət dövriyyəsinin 41,9 faizi Avropa İttifaqı ölkələri, 12,6 faizi MDB üzvü dövlətləri, 45,5 faizi isə dünyanın digər ölkələrinin payına düşüb. İxrac edilmiş məhsulların ümumi dəyərində xam neft, neft məhsulları, təbii qaz, meyvə-tərəvəz, plastik kütlə, qara metallar və onlardan hazırlanan məmulatlar, alüminium və ondan hazırlanan məmulatlar, şəkər, kimya sənayesi məhsulları, pambıq ipliyi və bitki yağları əsas yer tutub. İdxal olunmuş məhsulların dəyərində isə maşın, mexanizm, elektrik aparatları, avadanlıqlar, ərzaq məhsulları, qara metallardan hazırlanan məmulatlar, nəqliyyat vasitələri və onların hissələri, plastik kütlə və ondan hazırlanan məmulatlar, əczaçılıq məhsullarının xüsusi çəkisi üstünlük təşkil edib.

# Hər kəs nümunəvi vergi ödəyicisi ola bilər

Bir çox ölkələrdə dövlət büdcəsinə ən çox vergi ödəyən və ən intizamlı ödəyicilər sırasında nüfuzlu sahibkarlarla yanaşı, tanınmış şəxslər, xüsusilə də sənət adamları üstünlük təşkil edir. Məsələn, qardaş Türkiyədə nümunəvi vergi ödəyicilərinin siyahısında media sahiblərinin, şou-biznes nümayəndələrinin xüsusi payı vardır. Ən yaxşı ödəyicilər arasında özünəməxsus televiziya layihələri ilə tanınan Acun İlıcalı, şou-biznesin öndə gələn simaları Cem Yılmaz , Bəyazit Öztürk, Seda Sayan və digərləri yer alırlar. ABŞ, Yaponiya, Cənubi Koreya kimi inkişaf etmiş ölkələrdə də ən çox vergi ödəyənlər siyahısında məşhurların adlarına ilk onluqlarda rast gəlmək mümkündür. Bu şəxslər bəyannamələrini fəxrlə ictimaiyyətə açıqlayır, nümunəvi vergi ödəyiciləri olmaqdan qürur duyduqlarını bildirirlər.

Azərbaycanda isə vəziyyət xeyli fərqlidir, ən intizamsız və vergiləri ödəməkdən yayınanların siyahısında ilk yerləri şou-biznes nümayəndələri tuturlar. Vergi orqanlarının davamlı maarifləndirmə, təbliğat xarakterli tədbirlərinə baxmayaraq bu sənətin sahibləri vergi ödəməmək üçün müxtəlif vasitələrə əl atırlar. Vergidən yayınmalarına dair məlumatlar ictimaiyyətə açıqlandıqda isə müxtəlif «şou»lar təşkil edirlər.

Dövlət başçısının imzaladığı 4 avqust 2016-cı il tarixli «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri və vergi inzibatçılığının təkmilləşdirilməsi barədə» sərəncamında qarşıya qoyulan vəzifələrdən biri də nümunəvi və intizamsız vergi ödəyicilərinin müəyyənləşdirilməsi ilə bağlıdır. Sənədə əsasən, Vergilər Nazirliyinə vergi qanunvericiliyinə əməl edən nümunəvi vergi ödəyiciləri və vergi qanunvericiliyinin mütəmadi olaraq pozulmasına yol verən intizamsız vergi ödəyiciləri ilə bağlı məlumatların rəsmi internet səhifəsində yerləşdirərək ictimaiyyətə açıqlanması tapşırılıb. Nazirlik sərəncamdan irəli gələn məsələlərin həlli ilə bağlı müvafiq təkliflər üzərində işləyir. Vergilər nazirinin müşaviri Ələkbər Məmmədovun sözlərinə görə, hazırda bu istiqamət üzrə beynəlxalq təcrübə öyrənilir və yaxın vaxtlarda nümunəvi vergi ödəyicilərinin meyarları hazırlanacaq. Vergilərini vaxtlı-vaxtında ödəyən nümunəvi vergi ödəyiciləri və intizamsız vergi ödəyiciləri müəyyən ediləcək, onların adları ictimaiyyətə açıqlanacaq. Nümunəvi vergi ödəyicilərinə münasibətdə vergi inzibatçılığı sadələşdiriləcək və onlara ünvanlı xidmətlər göstəriləcək.

### Nümunəvi vergi ödəyiciləri üçün güzəştlər

Beynəlxalq təcrübəyə əsasən nümunəvi vergi ödəyiciləri vergiləri tam şəkildə və vaxtında ödəməklə yanaşı, fəallıq nümayiş etdirərək cəmiyyətin vergi ödəmək vərdişlərinin möhkəmlənməsində ictimai funksiya daşıyıcıları hesab olunurlar. Dövlət cəmiyyətdəki nüfuzunu nəzərə alaraq onları müxtəlif tədbir və yığıncaqlara dəvət edir, mükafatlandırır. Bu, digər sahibkarların da nümunəvi vergi ödəyicisi olmaq arzusunun gerçəkləşməsində digər təşviqat vasitələrindən az rol oynamır.

Ə. Məmmədovun sözlərinə görə, bir sıra ölkələrdə nümunəvi vergi ödəyicilərinə müxtəlif güzəştlər olunur. Məsələn, Sinqapurda həmin şəxslərə tibb müəssisələrinin xidmətlərindən istifadəyə görə 25 faiz güzəşt olunur. Cənubi Koreyada nümunəvi vergi ödəyiciləri nəqliyyat vasitələrindən istifadə edərkən əhəmiyyətli güzəştlərdən faydalanırlar. Onlar üçün 3 il səyyar vergi yoxlamaları aparılmır. Ölkədə nümunəvi vergi ödəyiciləri günü keçirilir. Ən çox vergi ödəyən şəxslər mükafatlandırılır. Ölkənin maliyyə-vergi sisteminə davamlı olaraq töhfə verən bu ödəyicilər prezidentin xüsusi mükafatına layiq görülür. Rusiyanın Federal Vergi Xidməti tərəfindən bu şəxslərə diplom və xüsusi şəhadətnamələr təqdim olunur, ilin ən yaxşı vergi ödəyicisi medalı təsis edilir.

İqtisadçı Vüqar Bayramovun sövlərinə görə, beynəlxalq təcrübədə könüllü vergi ödəyicisi prinsipi geniş tətbiq olunur. ABŞ-ın vergi sistemi üçün bu daha xarakterikdir. Əsas mahiyyəti isə ondan ibarətdir ki, bu cür ödəyicilər vergi bəyannamələrini könüllü şəkildə təqdim etməklə bərabər, vergidən yayınanların öz öhdəliklərinə əməl etməsində, vergi orqanlarına lazımi kömək göstərilməsində, məlumatların verilməsində mühüm rol oynayırlar.

### Təhsil və maarifləndirmənin rolu

Nümunəvi vergi ödəyicilərinin «yetişdirilməsində» əsas vasitələrdən biri təbliğat və maarifləndirmədir. Beynəlxalq təcrübədə vergi ödəyicilərinin davranışlarına təsir vasitələri arasında ən səmərəlisi təhsil hesab olunur. Vergi sahəsində təhsilin əsas məqsədi nümunəvi vergi ödəyicisi yetişdirmək, cəmiyyətdə vergi əxlaqı və mədəniyyətini formalaşdırmaq, vətəndaşları erkən yaşlardan düzgün vergi davranışlarına öyrətmək, vergi sahəsində könüllü əməletməni cəmiyyətin həyat normasına çevirməkdən ibarətdir. Hər bir vergi ödəyicisinə öhdəlikləri, bu öhdəliklərin yerinə yetirilməsi üsulları təhsil vasitəsilə öyrədilir və beləliklə, nümunəvi vergi ödəyicisi formalaşdırılır.

Ə.Məmmədovun fikrincə, nümunəvi vergi ödəyicilərinin sayının artırılması və könüllü əməletmə səviyyəsinin yüksəlməsində partnyorluq sazişlərinin bağlanması, vergi ödəyicilərinə xidmət mərkəzlərinin yaradılması, internet vergi xidmətləri, Çağrı Mərkəzi, «Vergi dostları» və «Vergi uşaqların gözü ilə» layihəsinin həyata keçirilməsi, orta və ali məktəblərdə məlumat xarakterli görüşlərin təşkili, sahibkarlarla görüşlərin keçirilməsi öz mühüm təsirini göstərir. Ona görə də vergi mədəniyyətinin artırılması məqsədilə bu tipli layihələrin davam etdirilməsi, digər maarifləndirici tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

### İntizamsız vergi ödəyiciləri və ictimai qınaq

Vergilər Nazirliyi bir neçə ildir ki, vergiləri ödəməyən şəxslərin və şirkətlərin adlarının salındığı «qara siyahı»nı ictimaiyyətə təqdim edir. Sıyahıda vergi borcunu ödəməkdən yayındıqları üçün barələrində cinayət işi açılan və istintaqı yekunlaşdırılaraq məhkəməyə göndərilən vergi ödəyicilərinin adları da mütamadi olaraq təqdim olunur. Bu vasitələr borclu sahibkarların vergi borclarını dövlət büdcəsinə ödəməsinə öz təsirini göstərir. Bəzi hallarda sahibkar adının cəmiyyətə təqdim olunaraq qınaq obyektinə çevrilməsini özü üçün arzuolunmaz hal hesab etdiyindən onda müəyyən bir məsuliyyət hissi yaranır. Bu mənada yeni islahatlar planında mütəmadi olaraq nöqsanlara yol verən intizamsız vergi ödəyiciləri ilə bağlı məlumatların Vergilər Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirilərək ictimaiyyətə açıqlanması bir növ ictimai tənbeh kimi öz təsirini göstərəcək.

Bəzi ölkələrdə intizamsız vergi ödəyicilərinin «yola gətirilməsi» məqsədilə onlar üçün ictimai tədbirlər, maarifləndirmə, təşviqat xarakterli görüşlər təşkil olunur. Rusiyada bu cür ödəyicilər üçün ayrıca «Açıq qapı» günləri təşkil olunur, onlara vergidən yayınmanın hansı məsuliyyət yaratması izah olunur. Bu görüşlər müəyyən dərəcədə öz müsbət təsirini göstərir.

### «Könüllü vergi açıqlaması»

İslahatlar çərçivəsində vergi ödəyicilərinin nümunəviliyini təmin etmək məqsədilə «könüllü vergi açıqlaması» sisteminin tətbiqi də nəzərdə tutulur. V.Bayramovun sözlərinə görə, bu, vergi yoxlaması zamanı aşkar olunmamış səhvlərin, o cümlədən vergi məbləğlərinin düzgün hesablanmamasının, azaldılmasının və sairənin kameral vergi yoxlaması üçün qanunla müyyən edilmiş müddət bitdikdən sonra vergi ödəyicisi tərəfindən könüllü olaraq bəyan edilməsi deməkdir. Bu sistemin tətbiqi sayəsində vergi ödəyicisinə dəqiqləşmiş bəyannamə verilməsi hüququ veriləcək, nəticədə həmin bəyannamə ilə könüllü açıqlanmış vergi məbləğlərinə görə vergi ödəyicisinə faiz hesablanması və maliyyə sanksiyasının tətbiqi istisna ediləcək. Bu, vergi ödəyicilərinin könüllü şəkildə vergi ödəmələrinə səbəb olacaq.

Nümunəvi vergi ödəyicisi prinsipinin və «könüllü vergi açıqlaması» sisteminin tətbiqi vergi orqanı ilə sahibkar arasında münasibətlərin yeni müstəvidə və tərəfdaşlığın daha sivil formada qurulmasına imkan verəcək. Bu, həm də vergidən yayınmanı azaldacaq.

Nümunəvi vergi ödəyicilərinə münasibətdə vergi inzibatçılığı sadələşdiriləcək və onlara ünvanlı xidmətlər göstəriləcək

**Elbrus CƏFƏRLİ**

# Transfer qiymətləndirmə müzakirə edilib

Azərbaycan Respublikası Prezidentinin «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında sərəncamında verilmiş tapşırıqların icrası ilə bağlı Vergilər Nazirliyinin tədbirlər planında beynəlxalq təcrübə nəzərə alınmaqla vergi ödəyiciləri tərəfindən xərclərin süni şəkildə artırılması (transfer qiymətləndirmə) hallarının aradan qaldırılması məqsədilə qanunvericilik bazasının yaradılması nəzərdə tutulmuşdur.

Bununla əlaqədar avqustun 16-da Vergilər Nazirliyinin Tədris Mərkəzinin Elmi-tədqiqat bölməsi tərəfindən «Transfer qiymətləndirmə və afillə olunmuş tərəflər» mövzusunda elmi seminar keçirilmişdir. Seminarda transfer qiymətləndirmənin müasir qloballaşan dünya iqtisadiyyatında mahiyyəti, qarşılıqlı asılı şəxslər və onların meyarları, transfer qiymətləndirmə və vergi planlaşdırması və digər anoloji məsələlər müzakirə edilmişdir.

## BİR CÜMLƏ - BİR XƏBƏR

Azərbaycanın Nazirlər Kabineti dövlət orqanlarına göstərilən elektron xidmətlərin siyahısını genişləndirib.

Beynəlxalq Valyuta Fondunun Direktorlar Şurasının üzvləri gələn ay Azərbaycana səfər edəcəklər.

«Moody's» Azərbaycan büdcəsinin icrasını müsbət qiymətləndirib.

Azərbaycan Rusiya ilə birgə təyyarə istehsalına başlayacaq.

Sentyabrda Bakıda daha bir neçə marşrut xəttində ödəniş kartları tətbiq olunacaq.

«Türk Hava Yolları» aviaşirkəti Lənkəran şəhərinə yeni aviareys açacaq.

Azərbaycan investorları İranda otel tikintisinə başlayacaq.

Azərbaycan oktyabrın 9-13-də İstanbulda keçiriləcək Dünya Enerji Şurasının XXIII Dünya Enerji Konqresində təmsil olunacaq.

Bu ilin yanvar-iyul aylarında Azərbaycanda satılmış məhsulların və göstərilmiş xidmətlərin dəyəri 20,8 milyard manat olmaqla 2015-ci ilin eyni dövrünə nisbətən müqayisəli qiymətlərlə 1,8 faiz artıb.

# Koreya ASAN imza təcrübəsini öyrənəcək

Avqustun 19-da Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən Dövlət İdarəçiliyi üzrə Azərbaycan-Koreya Əməkdaşlıq Forumu keçirilib.

Forum çərçivəsində iştirakçılara ASAN imza mobil elektron imza xidməti barədə ətraflı məlumat verilib. Bildirilib ki, ən müasir beynəlxalq standartlara uyğun olan ASAN imza texnologiyasının tətbiqi Azərbaycanda dövlət və özəl sektorların uğurlu əməkdaşlığının bariz nümunəsidir. Bu modelin istifadəsi ölkədə innovativ texnologiyaların tətbiqi baxımından olduqca əhəmiyyətlidir.

Forum çərçivəsində təqdim edilən ASAN imza mobil elektron imza texnologiyası koreyalı qonaqların diqqətini cəlb edib və Azərbaycanın bu sahədəki təcrübəsinin öyrənilməsinə dair ikitərəfli əməkdaşlığın perspektivlərinin müzakirə edilməsi istiqamətində razılığa gəlinib.

# İnvestisiyalar iqtisadi inkişafın əsasını təşkil edir

Xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsi Azərbaycanın xarici iqtisadi siyasətinin mühüm tərkib hissəsidir. Son 20 il ərzində 190 mlrd. ABŞ dollarından çox həcmdə cəlb olunmuş investisiyaların təxminən yarısını müxtəlif sahələrin inkişafına yönəldilmiş xarici investisiyalar təşkil edir. Xarici investorların Azərbaycanda fəallığını ölkədə cəlbedici investisiya mühitinin mövcudluğu ilə əsaslandırmaq olar.

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) ölkə iqtisadiyyatının prioritet sahələrinə, xüsusilə qeyri-neft sahəsinə xarici investorların cəlb olunması istiqamətində işlər aparır. Azərbaycanın regionda investisiyalar üçün ən cəlbedici məkan kimi təşviq edilməsi, xarici sahibkarlara respublikamızda biznesin qurulması və inkişaf etdirilməsi üzrə xidmətlərin göstərilməsi, ölkəmizin investisiya imkanlarının potensial xarici investorlara çatdırılması, investisiyaların cəlb edilməsi üzrə ən qabaqcıl dövlətlərin təcrübəsinin öyrənilməsi və bunun əsasında ölkəmizdə investisiya mühitinin təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması fondun fəaliyyətinin ümumi istiqamətlərini təşkil edir.

AZPROMO tərəfindən Azərbaycanda investisiya potensialı barədə geniş təşviqat və təbliğat kampaniyası aparılır. Bu sahədə görülən işlərdən biri də «İnvestisiya layihələri» kataloqunun hazırlanaraq hər il yenilənməsidir. Fondun mətbuat xidmətindən bildirildiyinə görə, kataloqun son yenilənmiş buraxılışında kənd təsərrüfatı, sənaye, alternativ və bərpa olunan enerji, turizm, İKT, tikinti və sair kimi ölkə iqtisadiyyatının prioritet sahələrini əhatə edən və xarici investorlar üçün maraqlı ola biləcək 65 investisiya layihəsi əksini tapıb. Kataloq AZPROMO tərəfindən keçirilən tədbirlər və ikitərəfli görüşlər zamanı xarici iş adamlarına təqdim olunur. Artıq potensial investorlar tərəfindən kataloqda yer almış layihələrlə bağlı AZPROMO-ya müraciətlər də daxil olur.

**FƏXRİYYƏ**

# «İxraca hazır ol»...

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) «İxraca hazır ol» layihəsi çərçivəsində sahibkarlar üçün bir sıra tədbirlər həyata keçirməyi planlaşdırır. Fondla Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti arasında imzalanmış anlaşma memorandumuna əsasən, ölkəmizdə fəaliyyət göstərən kiçik və orta sahibkarlıq subyektlərinin ixrac sahəsində maarifləndirilməsi, onların nəzəri və praktiki biliklərinin artırılması, milli sahibkarların ixrac sahəsində Avropada təcrübə keçməsi nəzərdə tutulur. Birgə layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə ixraca dair sertifikatlaşdırma, elektron ixrac üzrə təlimlərin keçilməsi, bazar tədqiqatlarının aparılması, məlumat mübadiləsi və digər tədbirlər nəzərdə tutulub.

AZPROMO-nun rəhbəri Rüfət Məmmədov bildirib ki, layihə çərçivəsində «İxracatçılar üçün təlimat kitabı» da hazırlanıb. Nəşr Azərbaycan ixracatçılarının potensial xarici bazarlara çıxışı üçün ixrac zamanı tətbiq olunan prosedurlar, ixrac məhsullarına dair standartlar, beynəlxalq ticarətdə müqavilə hüququ, logistika və digər məsələlər üzrə maarifləndirmə işlərinin aparılması əhəmiyyətlidir.

Milli ixracın stimullaşdırılması məqsədilə əsas hədəflərdən danışan R.Məmmədov qeyd edib ki, sahibkarlıq subyektlərinin idxal və ixrac əməliyyatında tələb olunan sənəd və prosedurların sayının azaldılması, ixracdakı hesablamaların daha da sadələşdirilməsi, investisiya təşviqi sənədi almış sahibkarların ixraca həvəsləndirilməsi və digər tədbirlər nəzərdə tutulur. İxracatçıların qarşılaşdıqları əsas problemlərdən olan sertifikatlaşdırmanın, mənşə və keyfiyyət sertifikatlarının əldə olunması qaydalarının asanlaşdırılması üçün qanunvericiliyə bəzi dəyişikliklərin edilməsi də istisna olunmur. İxracqabiliyyətli məhsul istehsal etmək üçünsə özəl sektorda müasir tələblərə cavab verən və yüksək texnologiyalarla təchiz olunan yeni sənaye və emal müəssisələrinin açılması vacib hesab edilir. Bu məqsədlə dövlət iş adamlarına istehsal yönümlü müəssisələrin açılması üçün güzəştli kreditlərin verilməsi, investisiyaların cəlb edilməsinə mane olan bürokratik amillərin aradan qaldırılması, elektron xidmətlərin həcminin genişləndirilməsi ilə əlaqədar tədbirləri də artıracaq.

2016-cı ildən dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yüklərin daşınmasında tətbiq olunan «bir pəncərə» prinsipinin təkmilləşdirilməsi də nəzərdə tutulur. Bütövlükdə, bu sahədə həyata keçiriləcək islahatların əsas məqsədi milli ixracatçıların xarici bazarlara daha asan və rahat məhsul çıxarmalarına imkan yaratmaq, yerli və xarici biznes nümayəndələrinin tranzit daşınmalarında fəallığını artırmaq, rəqabət mühitini daha da yaxşılaşdırmaqdır.

**E.CƏFƏRLİ**

# Vergidən yayınmağın cəzası: cərimə sanksiyaları, məhkəmə...

Yazı Mətbuat Şurasının və Vergilər Nazirliyinin «Azərbaycanın vergi sistemi yeni iqtisadi inkişaf mərhələsində» mövzusunda fərdi yazı müsabiqəsində mükafata layiq görülüb



Elxan Salahov
«İki sahil» qəzeti

### Nədənsə bələdiyyələr yerli vergiləri ödəməkdən imtina edənləri məhkəməyə vermək istəmir

Hər bir şəhərin, rayonun, qəsəbənin, kəndin abadlığı, sosial-iqtisadi inkişafı, infrastrukturla təchiz olunması yerli əhəmiyyətli vergilərin yığımından çox asılıdır. Çünki yerli əhəmiyyətli vergilər birbaşa həmin kəndin, qəsəbənin, rayonun, şəhərin özünün abadlaşmasına, sosial-iqtisadi inkişafına, yerli infrastrukturun qurulmasına yönəldilir. Bu vergilərin əsas hissəsi isə yerli özünüidarə orqanları olan bələdiyyələr tərəfindən yığılır və yerli əhəmiyyətli layihələrin icrasına xərclənir.

**Bələdiyyə torpaqlarının qeyri-qanuni zəbt olunması vergidən yayınma və digər hüquq pozuntularına qarşı mübarizə aparmağa mane olan əsas səbəblərdən biridir**

Hazırda Azərbaycanda dörd yerli vergi növü tətbiq edilir. Bunlar fiziki şəxslərin əmlak vergisi, fiziki şəxslərin torpaq vergisi, yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi və bələdiyyələrin mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisidir. Bundan başqa, mövcud qanunvericiliyə görə, bələdiyyə mülkiyyətində olan torpaqlarda, binalarda və digər obyektlərdə küçə reklamının yerləşdirilməsindən və yayımından, bələdiyyə mülkiyyətinin özgəninkiləşdirilməsindən, icarəyə və istifadəyə verilməsindən, bələdiyyələr tərəfindən xüsusi ayrılmış torpaq sahələrində stasionar və ya səyyar ticarət, ictimai iaşə xidmətlərindən, mehmanxana, sanatoriya-kurort və turizm xidmətləri göstərilən şəxslərdən tutulan ödənişlər yerli özünüidarə qurumlarının ixtiyarına verilib. Həmçinin bələdiyyə ərazisində hüquqi və fiziki şəxslərə məxsus ixtisaslaşdırılmış avtomobil dayanacaqları və ya bələdiyyələrin qərarına əsasən müəyyən edilmiş yerlərdə bütün növ nəqliyyat vasitələrinin daimi və ya müvəqqəti dayanacaqları üçün ödənişlər də yerli özünüidarə qurumları tərəfindən yığılır. Mövcud qanunvericilik restoran və şadlıq evləri, əyləncə mərkəzlərindən də bəzi ödənişlərin bələdiyyələr tərəfindən yığılmasını nəzərdə tutur.

Bəs, bələdiyyələr bu vergiləri yığa bilirmi? Vergi ödəyiciləri, yəni əhali özlərinin yaşadıqları məhəllənin, kəndin, qəsəbənin, rayonun və ya şəhərin sosial-iqtisadi inkişafı üçün əsas maliyyə mənbəyi olan vergiləri vaxtlı-vaxtında və tam şəkildə ödəyirmi? Bələdiyyələr yerli əhəmiyyətli vergi və ödənişləri tam şəkildə yığa bilmədikdə ödəyicilərə qarşı hansı inzibati tədbirlərə əl ata bilər? Belə hallarda vergi ödəyiciləri cərimələnə, onların əmlakı müsadirə edilə bilərmi?

Bəri başdan deyək ki, mülkiyyət formasından asılı olmayaraq bütün növ vergilərin yığımı və

**İndiki halda yerli əhəmiyyətli vergi və digər ödənişlərin yığımındakı problemi həll etmək üçün mexanizmlər çox məhduddur**

toplanması Vergi Məcəlləsi ilə tənzimlənir. Məcəlləyə əsasən, yerli vergi və ödənişlər bilavasitə bələdiyyələrə aid olduğundan onun toplanması və istifadəsi qaydaları, vergi ödəyiciləri ilə münasibətlər «Bələdiyyələrin vergi xidməti orqanı haqqında Əsasnamə»nin tələblərinə əsaslanır. Bu Əsasnaməyə görə, bələdiyyələrin vergi xidməti orqanı yerli (bələdiyyə) vergilərin və ödənişlərin Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada hesablanmasına, vaxtında və tam məbləğdə yerli büdcələrə ödənilməsinə nəzarəti həyata keçirir. Hətta bələdiyyələr özlərinin mülkiyyətində olan hüquqi şəxslərdə kameral vergi yoxlamaları keçirmək, vergi və ödənişlər üzrə vaxtı keçmiş borcların, yerli vergilər üzrə hesablanmış faizlərin alınması və ödəyicilərinə maliyyə sanksiyalarının tətbiq olunması barədə məhkəməyə müraciət etmək hüququna malikdir. Amma son 17 ilin təcrübəsi göstərir ki, Azərbaycanda əhalinin böyük əksəriyyəti yerli əhəmiyyətli vergiləri ödəməkdən yayınır. Bələdiyyələr hətta öz səlahiyyətlərində olan vergi və ödənişlərin ən yaxşı halda 25-30 faizini toplaya bilir.

**Bələdiyyələrə aid vergi və ödənişlərin toplanmasındakı problemlər şəhər yerlərindən qəsəbə və kəndlərə doğru daha da dərinləşir**

### Kənddə reklam?!

Əvəz Mirzəyev bildirir ki, bələdiyyələrə aid vergi və ödənişlərin toplanmasındakı problemlər şəhər yerlərindən qəsəbə və kəndlərə doğru daha da dərinləşir. Onun sözlərinə görə, hazırda ölkədə iqtisadi inkişafın əsas ağırlığı Bakı şəhəri və ətraf ərazilərdə mərkəzləşdiyindən faktiki toplanan vergilərin faiz nisbəti də bu regionda daha yüksəkdir: «Hazırda Azərbaycanda fəaliyyət göstərən yerli özünüidarəetmə orqanlarının 85 faizi kənd bələdiyyələrinin payına düşür. Lakin Azərbaycanın hansı kəndində avtomobil dayanacağı var ki, həmin dayanacağa görə bələdiyyəyə ödəniş verilsin?! Başqa bir vergi növü olan reklam xidmətinə gəlincə, indi hansısa kənddə reklam xidmətinin göstərildiyini söyləsək bizə gülərlər. Çünki kəndlərdə belə bir xidmət yoxdur. Yaxud kənd yerlərinin neçə faizində mehmanxana var?! Hansı kənddə restoran və şadlıq evləri, əyləncə mərkəzləri var ki, bu xidmətlərdən bələdiyyələrin hesabına pul ödənilsin?! Bu bir reallıqdır ki, kənd yerlərində fəaliyyət göstərən mehmanxanaların sayı barmaqla sayıla biləcək qədər azdır. Belə olan halda bələdiyyələr onların səlahiyyətinə verilmiş vergiləri necə yığsın?».

### Bələdiyyələr vergidən yayınanlarla yumşaq davranır...

Maraqlıdır, bələdiyyələr yerli, yəni özlərinin səlahiyyətində olan vergi və digər ödənişləri yığa bilmədikdə vergi ödəyicilərini məhkəməyə verə bilər. Ancaq indiyədək hər hansı bələdiyyənin öz ərazisində qanunla müəyyən edilmiş vergi növləri üzrə ödənişləri yerinə yetirməyən fiziki şəxsləri məhkəməyə verməsi təcrübəsinə rast gəlinməyib. Bakıda və regionda fəaliyyət göstərən bələdiyyələr arasında keçirilən rəy sorğuları da göstərir ki, indiyədək heç bir bələdiyyə orqanı vergi və digər ödənişləri vaxtlı-vaxtında və ya tam şəkildə ödəmədiyi üçün hər hansı fiziki şəxsə qarşı məhkəmə iddiası qaldırmayıb. Hətta bəzi bələdiyyə orqanlarında bu qurumların yerli vergiləri ödəməkdən imtina edən şəxslər barəsində məhkəmədə iddia qaldırmaq səlahiyyətlərinə malik olmalarından xəbərsizdirlər. Vergi qanunvericiliyinin tələblərini yaxşı mənimsəmiş bələdiyyə qulluqçuları isə belə mübahisələrin məhkəmə yolu ilə həllinin tərəfdarı deyillər. Xüsusilə də kənd və qəsəbə bələdiyyələrində vergidən yayınan şəxslər barəsində inzibati cərimə tətbiq etməyin,

**Əhali görsə ki, bələdiyyə onun ödədiyi vergilər hesabına daha yaxşı işləyir, öz ərazisində abadlaşdırma işləri aparır, onda vergiləri vaxtında və tam ödəməkdə maraqlı olacaq**

yaxud problemin hüquq mühafizə orqanlarının vasitəsilə həllinə maraq göstərilmir.

Media və İctimai Təşəbbüslər Mərkəzinin rəhbəri Samir Əliyev hesab edir ki, indiki halda yerli əhəmiyyətli vergi və digər ödənişlərin yığımındakı problemi həll etmək üçün mexanizmlər çox məhduddur. Onun sözlərinə görə, xüsusilə kənd və qəsəbələrdə yerli vergilərdən yayınmağın qarşısını almaq üçün yeganə mexanizm məhkəmədir ki, bələdiyyələr bu təsir vasitəsindən də istifadə edə bilmir. Çünki hansısa bələdiyyənin öz inzibati ərazisində yaşayan və hər gün üz-üzə gəldiyi vətəndaşa cərimə tətbiq etməsi, onun barəsində məhkəməyə şikayət verməsi əlavə problem yaradır. Bu səbəbdən də vətəndaş-bələdiyyə çəkişməsinin məhkəmə müstəvisinə çıxarılması məqbul üsul deyil və problemin həlli üçün başqa variant tapılmalıdır.

**İndiyədək heç bir bələdiyyə orqanı vergi və digər ödənişləri vaxtlı-vaxtında və ya tam şəkildə ödəmədiyi üçün hər hansı fiziki şəxsə qarşı məhkəmə iddiası qaldırmayıb**

### «Əhali görsə ki...»

Samir Əliyev bələdiyyələrin onların səlahiyyətində olan vergiləri tam şəkildə yığa bilməməsini daha çox qanunvericilikdə yerli vergi və digər ödənişlərin tətbiqi üzrə təkmil mexanizmlərin olmaması ilə əlaqələndirir. Onun sözlərinə görə, həmin ödənişlər içərisində fiziki şəxslərin torpaq vergisi yeganə maliyyə mənbəyidir ki, onun hesablanması və bələdiyyə büdcəsinə cəlb edilməsini bələdiyyələr müstəqil şəkildə həyata keçirə bilir. Digər yerli vergi növlərini yığmaq üçün isə bələdiyyələr istisnasız olaraq müvafiq icra orqanlarından asılı vəziyyətdədir.

Bundan başqa, vergi xidməti orqanlarından fərqli olaraq, bələdiyyələr yerli vergi və digər ödənişləri verməyən şəxslər barəsində hər hansı sanksiya tətbiq edə bilmirlər. Halbuki qanunvericilikdə dövlət vergi xidməti orqanları üçün belə bir hüquq nəzərdə tutulur.

Milli Məclisin Regional məsələlər komitəsinin üzvü, deputat Tahir Rzayev isə bələdiyyələrin yerli vergiləri ödəməkdən imtina edən şəxsləri məhkəməyə vermək istəməməsini anlayışla qarşılasa da, bunu təqdir etmir. Onun sözlərinə görə, bələdiyyələr hüquqlarından istifadə etməli, vergidən yayınanlara qarşı sərt tədbirlərdən çəkinməməlidir: «Bələdiyyələrə yerli vergiləri ödəməyən şəxslər barəsində məhkəməyə müraciət etmək səlahiyyəti verilib. Bu səlahiyyətlərdən maksimum istifadə edilməlidir ki, həm vergiləri yığa bilsin, həm də öz fəaliyyətləri ilə əhalinin etimadını qazansınlar. Əhali görsə ki, bələdiyyə onun ödədiyi vergilər hesabına daha yaxşı işləyir, öz ərazisində abadlaşdırma işləri aparır, onda vergiləri vaxtında və tam ödəməkdə maraqlı olacaq. Ona görə də bələdiyyələr yerli vergiləri ödəməyənləri məhkəməyə verməkdən çəkinməməlidir, əlindəki təzyiq imkanlarından istifadə etməlidir».

## vergi təqvimi

| SENTYABR | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | 1 | 2 | 3 | 4 |
| 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 |
| 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 |
| 19 | 20 | 21 | 22 | 23 | 24 | 25 |
| 26 | 27 | 28 | 29 | 30 | | |

*Qeyd: Verginin ödənilmə və bəyannamənin (o cümlədən arayışın) verilmə müddətinin sonuncu günü təqvimdə yaşıl rənglə qeyd edilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilir.*

**Ödənilən vergi:**

20 sentyabr - «(1-1)», «(1-2)», «3», «4», «7», «8», «(9-1)», «10.1» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.

Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**(«1-2») - Gəlir vergisi (İdman-mərc oyunları üzrə):** İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır.

İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində vergini tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və «İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq, qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksizlər:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verir. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**(«9-1») - Sadələşdirilmiş vergi (Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə):** Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

# Manatın 24 yaşı tamam oldu

Milli pul vahidi olan manat 1992-ci il avqustun 15-də tədavülə buraxılıb. Azərbaycan Respublikasının birinci pul emissiyası 1992-ci ildə Fransa Mərkəzi Bankı tərəfindən çap edilib. Ölkədə pul tədavülünün yaradılmasının və təşkil edilməsinin əsası Azərbaycan Respublikası Prezidentinin 11 fevral 1992-ci il tarixli «Azərbaycan Respublikası Milli Bankının yaradılması haqqında» Fərmanı ilə Milli Bankın yaradılması və Azərbaycan Respublikası Prezidentinin 15 iyul 1992-ci il tarixli «Azərbaycan Respublikası milli valyutasının dövriyyəyə buraxılması haqqında» Fərmanına müvafiq olaraq milli valyutanın dövriyyəyə buraxılması ilə qoyulub.

Bununla əlaqədar olaraq, 1992-ci ilin avqustunda 1, 10 və 250 manatlıq əsginazlar, noyabrında 5, 10, 20 və 50 qəpiklik sikkələr, dekabrında 5 manatlıq əsginaz, 1993-cü ilin martında isə 50, 100, 500 və 1000 manat nominallı kağız əsginazlar dövriyyəyə buraxılıb.

1992-ci ilin avqustundan 1994-cü ilin yanvarınadək Azərbaycan ərazisində 1 manat : 10 rubl nisbətində rubllar ilə paralel olaraq dövriyyədə ödəniş vasitəsi kimi istifadə olunurdu. Həmin dövrdə Mərkəzi Bank tərəfindən müstəqil pul siyasətinin yeridilməsinə şərait yaratmaq üçün manatın ölkə ərazisində yeganə ödəniş vasitəsi olmasının təsbit edilməsi zərurətə çevrilmişdi. Bu baxımdan ümummilli lider Heydər Əliyevin 11 dekabr 1993-cü il tarixli «Azərbaycan Respublikası milli valyutasının respublika ərazisində yeganə ödəniş vasitəsi elan olunması haqqında» Fərmanı mühüm rol oynadı. Bu fərmanla manatın dövriyyədə yeganə ödəniş vasitəsi olması təsbit edildi və Azərbaycanın rubl zonasından çıxması təmin edildi.

Milli Bank tərəfindən ölkədə nağd pul dövriyyəsinin nizamlanması, nağd pula olan tələbatın optimallaşdırılması məqsədilə 1994-cü ildə 10.000 manatlıq, 1996-cı ildə isə 50.000 manatlıq əsginazlar çap etdirilərək dövriyyəyə buraxıldı.

1994-cü ildə Almaniyada «Giesecke & Devrient» şirkəti tərəfindən istehsal edilən 10.000 manatlıq əsginazın üzərində «Şirvanşahlar» kompleksinin ümumi görünüşü, arxa tərəfində isə ənənəvi olaraq milli ornamentlə haşiyələnmiş çərçivədə həm rəqəmlə, həm də sözlə nominal verilmişdi.

İngiltərənin «De La Rue» şirkəti tərəfindən çap edilən 50.000 manat dəyərində əsginazlar 1996-cı ildən dövriyyəyə buraxılmış və bu pul vahidinin üzərində orijinal üslubda Naxçıvanda olan memarlıq abidəsi - «Möminə Xatun türbəsi», arxa hissəsində isə ənənəvi olaraq milli ornamentlə haşiyələnmiş çərçivədə nominalın dəyəri həm rəqəmlə, həm də sözlə verilmişdi.

İngiltərədə 2001-ci ildə «De La Rue» şirkəti tərəfindən yeni dizaynla 1000 manat dəyərində əsginaz buraxıldı. Bu əsginaz Azərbaycanda neftin çıxarılması və istehsal edilməsinə həsr edilmişdi. Əsginazın dizaynında ənənəvi çərçivələr və ornamentlərdən istifadə edilmişdi.

Ümumilikdə, Azərbaycan Respublikasının Milli Bankı tərəfindən ölkə iqtisadiyyatının nağd pula olan tələbatının ödənilməsi məqsədilə 1992-2005-ci illər ərzində 5 trilyon 238 milyard manat həcmində 692,5 milyon ədəd əsginaz istehsal olunaraq dövriyyəyə buraxılıb. Köhnə nominallı pul nişanları 2006-cı ilin sonuna qədər tədavüldə olub və denominasiya çərçivəsində dövriyyədən geri yığılıb.

Azərbaycan Respublikası Prezidenti tərəfindən 7 fevral 2005-ci il tarixdə «Azərbaycan Respublikasında pul nişanlarının nominal dəyərinin və qiymətlər miqyasının dəyişdirilməsi (denominasiyası) haqqında» Fərman imzalanıb. Fərmana uyğun olaraq, 2006-cı il yanvarın 1-dən etibarən yeni manata keçidlə əlaqədar 1 yeni AZN 5000 köhnə AZM-ə bərabər tutuldu. AZM və AZN-in birgə 1 il ərzində - 2006-cı ildə dövriyyədə oldu və yalnız 2007-ci il yanvarın 1-dən yeni manata tam keçid təmin edildi.

Dövriyyəyə buraxılan yeni manat 1, 5, 10, 20, 50, 100 ekvivalentində olan əsginazlar və 1, 3, 5, 10, 20, 50 metal pul nişanlarından ibarət olub.

Yeni manatın dizaynı ilə bağlı müsabiqənin qalibi Avstriyanın «OeBS» şirkətinin dizayneri, avronun müəllifi Robert Kalina olub. Yeni nəsil pul nişanlarının texniki parametrləri isə İsveçrə Milli Bankının texniki dəstəyi ilə hazırlanıb.

beynəlxalq panoram

## Fransa müsəlmanları halal məhsullara vergi qoyulmasını təklif ediblər

Fransada yaşayan müsəlmanların maraqlarını qoruyan nüfuzlu təşkilat - Fransa İslam Dini Şurası halal ərzaq məhsullarının vergiyə cəlb edilməsi təklifini irəli sürmüşdür. Təşkilatın mövqeyinə görə, bu vergidən əldə olunan vəsait məscidlərin maliyyələşdirilməsinə və sonuncu terror aktları fonunda radikalizmlə mübarizə tədbirlərinə yönəldiləcək.

«Halal ərzaq məhsullarına vergi qoymaq ideyası müsəlmanlar assosiasiyası təsis edildiyi andan mövcuddur, - şuranın rəhbəri Anuar Kbibeh demişdir. - Biz artıq halal məhsulu müəyyənləşdirməyin meyarını seçmişik və bizi həm sağ, həm də sol cinaha mənsub siyasətçilər dəstəkləyirlər. Buna baxmayaraq, halal məhsullar üçün verginin necə tutulması barədə hələ dəqiq yanaşma yoxdur».

Belə təxmin edilir ki, vergidən əldə ediləcək pul vəsaiti imamların məvaciblərinə, eləcə də Fransanın baş naziri Manuel Vals ekstremizm təhlükəsinə görə müsəlman icmalarının xaricdən maliyyələşdirilməsinə qadağa qoyandan sonra ölkə qanunvericiliyinə uyğun olaraq maddi dəstək almayan məscidlərin tikintisinə və istismar olunmasına yönəldiləcək.

## Olimpiya medallarına qoyulan vergi ləğv oluna bilər

Amerika senatoru Çarlz Şumer Nümayəndələr Palatasını ABŞ yığma Olimpiya komandasından Olimpiya və Paralimpiya oyunları zamanı qazanılan medallardan və digər mükafatlardan əldə edilən gəlirlərdən vergi tutulmasının ləğv edilməsi üçün Senatın bəyəndiyi qanun layihəsini qəbul etməyə çağırmışdır. Leyk-Plesiddəki Olimpiya təlim mərkəzində olarkən o, demişdir: «Bizim olimpiyaçılarımız və paralimpiyaçılarımız öz diqqətlərini qazandıqları medalların qarşılığında ödəməli olduqları vergilər üzərində deyil, dünya rekordu vurmaq üzərində cəmləşdirməlidirlər. Ölkələrin əksəriyyəti öz idmançılarını maliyyələşdirir, biz bu addımı atmaqla, ən azından, qazandıqları qələbəyə görə idmançılarımızın vergi zərbəsi almalarının qarşısını ala bilərik». O, qeyd etmişdir ki, medalların dəyəri, eləcə də ABŞ Olimpiya Komitəsi tərəfindən verilən pul mükafatları hazırda «ölkədən xaricdə qazanılmış gəlir» hesab edilir və federal vergitutmanın obyektidir. Şumer vurğulamışdır ki, bu qanun layihəsinin qəbul edilməsi federal büdcənin gəlirlərinə cüzi təsir göstərəcək və olimpiya idmançılarının aldıqları hər hansı potensial sponsor yardımından tutulan vergilərə isə aid edilməyəcək.

## İspaniyada vergi əməkdaşları pilotsuz uçan aparatlardan istifadə edirlər

2015-ci ildən hökumət əmlak vergisini vicdanla ödəməyən mülk sahibləri ilə mübarizənin nadir bir üsulundan istifadə etməyə başlamışdır. Artıq ikinci ildir ki, Maliyyə Nazirliyi daşınmaz əmlaka aid edilən obyektləri müəyyənləşdirmək üçün pilotsuz uçan aparatlardan və peyk xidmətlərindən faydalanır. Bunun nəticəsində 2015-ci ildə İspaniya vətəndaşlarının vergi bəyannamələrində göstərilməyən 1,7 milyon obyekt aşkara çıxarılmışdır. Hazırda bu təcrübədən İspaniyanın 4340 bələdiyyəsində istifadə edilir. İndi demək olar ki, bütün vergi ödəyiciləri, xüsusilə də vergi orqanı əməkdaşlarının nəzarətindən kənarda qalan obyektlərin sahibləri bəyannamələri vaxtında doldurub təqdim etməyə çalışırlar.

Pilotsuz uçan aparatların köməyi sayəsində xəzinəyə əvvəllər vergidən yayındırılan obyektlərdən 1,3 milyard avro vəsait daxil olmuşdur. Uçan aparatların alınmasına və onlara xidmətə xərclənən vəsaitin məbləği isə cəmi 80 milyon avro təşkil edir.

Vergi bəyannamələrində qayda pozuntusu şəhərlərin kadastrında olan evlərin 9%-də qeydə alınmışdır. Qanun pozuntusu hallarının təxminən 70%-də isə vətəndaşlar öz yaşayış şəraitlərinin yaxşılaşması barədə heç bir bəyanna mə verməmişlər.

## İrlandiyada şəkərə vergi tətbiq etmək hələ tezdir

İçki istehsalçılarının maraqlarını təmsil edən «Irish Beverage Council» qrupu bəyan etmişdir ki, İrlandiyada qazlı şirin içkilərə 10%-lik vergi tətbiqinin piylənməyə qarşı mübarizədə heç bir faydası olmayacaq, bu addımın atılması yalnız iqtisadiyyata ziyan vuracaq. Şəkərə vergi qoyulması ailələrin illik xərclərini 60 avro artıracaq və içkilərin satışında azalmaya səbəb olacaq. Bunun nəticəsində ölkə üzrə illik ƏDV yığımında 35 milyon avro azalma baş verəcək. Bundan əlavə, vergi dərəcəsinin artırılması nəticəsində hər il qazlı suların Şimali İrlandiyaya ixracından gələn vəsait də 60 milyon avro azalacaq.

Analitiklərin rəyinə görə, İrlandiyada şəkər vergisinin Böyük Britaniyada qüvvəyə minməsindən - 2018-ci ildən əvvəl tətbiq ediləcəyi inandırıcı görünmür.

## İspaniya karbohidrogen hasilatına vergi qoymağı planlaşdırır

Tarixən elə alınıb ki, fərqli ölkələr fərqli də enerji imkanlarına malik olub - məsələn, Rusiya, ABŞ, Səudiyyə Ərəbistanı kimi ölkələrdə yerin təki karbohidrogenlərlə zəngindir. Bu sərvət imkan verir ki, həmin dövlətlər həm özlərinin enerji daşıyıcılarına olan ehtiyaclarını tam ödəsinlər, həm də neftin, qazın və kömürün ixracından yaxşı qazanc əldə etsinlər. Bu sahədə bəxti gətirməyən ölkələr isə həmin enerji daşıyıcılarını satın almaq məcburiyyətindədirlər.

Belə ölkələrdən biri də İspaniyadır. İspaniyada günəş və hərarət bol olsa da, karbohidrogen ehtiyatları azdır. Məsələn, iki il bundan əvvələ qədər İspaniya özünün bütün neft tələbatını ixrac hesabına qarşılayırdı. Vəziyyəti yaxşılığa doğru dəyişmək üçün hökumət ölkənin vergi qanunvericiliyini əsaslı şəkildə nəzərdən keçirməyi qərara almışdır. Hökumət yaxın zamanlarda neftin, qazın və neft kondensatının hasilatına vergi tətbiq etməyi planlaşdırır, bununla da yerli karbohidrogen yataqlarının işlənilməsinin stimullaşdırılacağı gözlənilir.

Təxmin edildiyinə görə, verginin dərəcəsi neft hasilatının həcmindən asılı olaraq 1%-dən 8%-dək dəyişəcək : ölkə şelfində az neft həcmləri hasil edən şirkətlərə minimal vergi dərəcəsi tətbiq olunacaq, maksimal vergi dərəcələri isə quruda yerləşən yataqlarda çalışan şirkətlərə aid ediləcək.

Xatırladaq ki, İspaniya şelfinin hüdudları daxilində Əlcəzair-Provan hövzəsi (7 neft və 2 qaz yatağı) Əndəlis neft-qaz hövzəsi (7 milyard kubmetr qaz ehtiyatlarına malik Kadis təbii qaz yatağı) daxildir.



## Xəbər lenti

**Böyük Britaniya**da vergidən yayınmağa şərait yaradan vergi məsləhətçiləri cərimə olunacaqlar. Vergidən necə yayınmaq barədə tövsiyələr verən mühasiblər, hüquqşünaslar və məsləhətçilər yeni sərt sanksiyaların hədəfinə çevrilə bilərlər.

**Vyetnam**da gələn ildən kiçik və orta müəssisələrdən tutulan korporativ verginin dərəcəsi üç bənd aşağı salınaraq 20%-dən 17%-dək azaldılacaq.

**Böyük Britaniya**nın bir qrup biznes və sənaye təmsilçisi hökumətdən alkoqolsuz içkilərdən vergi tutulması ilə bağlı planına yenidən baxmağı xahiş etmişdir. Yeni vergi 2018-ci ilin aprelindən tərkibində şəkər olan içkilərin istehsalına və idxalına tətbiq olunmalıdır.

**Nigeriya**nın maliyyə naziri xanım Kemi Adeosun 2012-ci ildə qəbul edilmiş Milli Vergi Siyasətinə yenidən baxmaq üçün ayrıca bir komitə yaratmaq barədə sərəncam vermiş və bildirmişdir ki, bu sənədi indiyədək tam tətbiq etmək mümkün olmamışdır. Komitəyə tapşırıq verilmişdir ki, Vergi Məcəlləsinin sadələşdirilməsi, əməletmənin yaxşılaşdırılması və kiçik biznesin vergi yükünün yüngülləşdirilməsi kimi məsələləri nəzərdən keçirsin.

**Lüksemburq** vergi qanunvericiliyini beynəlxalq tələblərə uyğunlaşdırmaq üçün addımlar atır. Bundan sonra orada qeydiyyata alınmış şirkətlər ətraflı beynəlxalq hesabatlar təqdim edəcəklər. Lüksemburq şirkətləri isə maliyyə əməliyyatları apardıqları dövlət, ödədikləri vergilərin, əldə etdikləri gəlirlərin məbləği və digər vergi məlumatları barədə hesabat verəcəklər.

**Ukrayna**da gömrük sahəsində avqustun 1-dən tətbiq olunmağa başlayan yeni «Bir pəncərə» idarəetmə sisteminin nəzərdə tutulduğu kimi işlədiyinə əminlik məqsədilə dövlət rəsmiləri tərəfindən baxış keçirilmişdir. Bu sistem ölkə sərhədlərindən keçid zamanı nəzarət orqanlarına və gömrük məmurlarına yüklərə dair məlumatları avtomatik şəkildə mübadilə etməyə imkan yaradır.

**Fransa**nın iri əczaçılıq şirkəti olan «Flamel Technologies» bəyan etmişdir ki, səhmdarları şirkətin yerinin Fransadan İrlandiyaya köçürülməsi barədə planı artıq təsdiqləmişlər.

krossvord



**Yuxarıdan aşağı:** 1.Psixologiyada başqalarının hərəkət, əməl və işlərini yamsılamaq; 2.Hacıqabul rayonunda qəsəbə; 3.Rusiyada çay; 4.İspaniyada şəhər və bələdiyyə; 5.Əsası XII əsrdə qoyulmuş Böyük Britaniyanın ən məşhur universitetlərindən biri; 6.Fələstin milli muxtariyyətinin 1-ci sədri, Nobel Sülh mükafatı laureatı; 7.İtaliyada şəhər; 13.Laçın rayonunda kənd; 15.Türk yazıçısı, mütəfəkkir, iqtisadçı, tarixçi və müəllim; 16.2008-ci ildə Pekində keçirilən Olimpiya oyunlarında Azərbaycana gümüş medal qazandırmış yunan-Roma güləşçisinin adı; 17.İdxal; 18.Çaxır, şampan, mineral suyu və meyvə şirələrinin qarışığından hazırlanan alkoqollu desert içkisi; 20.XXXI Yay Olimpiya Oyunlarında Azərbaycana qızıl medal qazandıran taekvondoçunun adı; 21.Bir sıra avropa ölkələrinin parlament təcrübəsində səsvermə nəticəsində əmələ gələn fikir, rəy, mülahizə. **Soldan sağa:** 1.Azərbaycan sovet cərrahı, ictimai və dövlət xadiminin soyadı. Azərbaycanda tibb təhsilinin və səhiyyənin təşkilatçısı, respublikada cərrahlıq elmi məktəbinin banilərindən biri; 8.Qədim Rusiya xalq idman növü. Oyunda əsas məqsəd müxtəlif dizaynlarla qoyulmuş keqlləri dəyənəklə yıxmaqdır; 9.Üzüm və almadan hazırlanan turş maye; 10.Ölkəmizdə mövcud olmuş aviaşirkət; 11.Bədii ədəbiyyatda romanın bir şəklidir. Epik janrın ən mürəkkəb və geniş növüdür; 12.Əxlaq, ənənə mənalarını verən fəlsəfi termin; 14.Ən yüksək məqsəd, qayə, amal. Mükəmməllik; 19.Allahın elçilərindən biri; 21.Məcbur, məcburiyyət qarşısında qalmaq; 22.İtalyan bəstəkarı Cüzeppe Verdinin bəstələdiyi məşhur opera əsəri; 23.Qızıl Orda xanı; 24.Birinci; 25.Dəniz nəqliyyatı vasitəsi.



*Dəniz nəqliyyatı vasitəsi*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Kakadu; 2.Nereida; 3.Lokum; 4.Müslüm *(Maqomayev)*; 5.Rostbif; 6.Turac; 7.Qlazqo; 13.Orta; 15.Nefelin; 16.Abuzər *(Xələfov)*; 17.İntern; 18.Batist; 20.Ramil *(Şeydayev)*; 21.Kenti. **Soldan sağa:** 1.Konqlomerat; 8.Karakas; 9.Sarma; 10.Deizm; 11.Üçbucaq; 12.Qabon; 14.Afina; 19.Bariton; 21.Kafka *(Frans)*; 22.Zima; 23.Bernulli *(Yakob)*; 24.Ril; 25.Pansionat.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 11000

idman

# Azərbaycan olimpiyaçıları «Rio-2016»dan 18 medalla qayıtdılar

Avqustun 22-də Braziliyanın Rio-de-Janeyro şəhərindəki «Marakana» stadionunda XXXI Yay Olimpiya Oyunlarının möhtəşəm bağlanış mərasimi oldu.

Olimpiya Oyunlarının vətəni sayılan Yunanıstanın dövlət bayrağının qaldırılması və dövlət himninin səsləndirilməsindən sonra BOK-un bayrağı endirildi. Olimpiya bayrağı 2020-ci ildə növbəti Olimpiadaya ev sahibliyi edəcək Tokio şəhərinin meri xanım Yuriko Koikoya təqdim olundu və Yaponiyanın dövlət himni səsləndirildi.

Azərbaycan yığma komandası XXXI Yay Olimpiya Oyunlarına əvvəlki olimpiadalarla müqayisədə daha geniş tərkibdə - idmanın 18 növü üzrə 56 idmançı (57 lisenziya) ilə qatılmışdı. Bu, ötən Olimpiya Oyunları ilə müqayisədə 4 idman növü çoxdur. Ölkəmiz triatlon, kamandan oxatma, velosiped və kanoe-slalom idman növlərində ilk dəfə təmsil olundu. Olimpiadada ölkəmizi təmsil edən 56 idmançıdan 36-sı ilk dəfə Olimpiya Oyunlarının iştirakçısı oldu. Rio-de-Janeyroda Azərbaycan güləş, gimnastika və boks yarışlarında olmaqla 3 hakimlə də təmsil olundu.

Cənubi Amerikada keçirilən ilk Olimpiya Oyunları - «Rio-2016» bir sıra özünəməxsus cəhətləri ilə əvvəlki olimpiadalardan seçilir. Rio-de-Janeyronun dörd rayonunda - Deodoro, Barra, Kopakabana və Marakanada 17 gün davam edən Olimpiadada 306 yarış keçirildi və ümumilikdə 2102 medal sahiblərinə təqdim olundu. XXXI Olimpiadada rekord sayda - 206 ölkədən 11 mindən çox idmançı mübarizə apardı. İştirakçı 206 ölkədən başqa, Olimpiya qaçqın idmançılar komandası da mübarizəyə qoşuldu. Olimpiya bayrağı altında mübarizə aparan bu komandanın tərkibində 10 idmançı yer aldı. Onlardan 5-i Cənubi Sudandan, 2-si Suriyadan, 2-si Konqo Demokratik Respublikasından, 1-i isə Efiopiyadandır. Olimpiadaya ən çox - 554 idmançı ilə qatılan ölkə ABŞ-dır. Okeaniya ölkəsi olan Tuvalu isə Olimpiadaya cəmi bir idmançı - 100 metr məsafəyə qaçış yarışında mübarizə aparan atlet Etimoni Timuani ilə qatıldı. Kosovo və Cənubi Sudan isə Olimpiadada ilk dəfə çıxış etdi.

XXXI Yay Olimpiya Oyunlarında atletlər idmanın 39 növü üzrə mübarizə apardılar. Qolf 112, reqbi isə 92 illik fasilədən sonra yenidən Olimpiya Oyunlarının proqramına salındı. Bütün yarışlar 37 arenada təşkil olundu.

XXXI Yay Olimpiya Oyunları Azərbaycan olimpiya yığması üçün uğurlu oldu. «Rio-2016»da Azərbaycan komandası 18 (1 qızıl, 7 gümüş və 10 bürünc) medal qazandı. Komandamıza yeganə qızıl medalı taekvondoçu Radik İsayev qazandırdı. Sərbəst güləşçilər Toğrul Əsgərov, Xetaq Qazyumov, boksçu Lorenzo Sotomayor, cüdoçular Rüstəm Orucov və Elmar Qasımov, qadın güləşçimiz Mariya Stadnik və kanoeçi Valentin Demyanenko yalnız final görüşlərində uduzaraq gümüş medal aldılar. Taekvondo yarışlarında Milad Beiqi Harçeqani və Patimat Abakarova, boksçu Kamran Şahsuvarlı, güləşçilər Rəsul Çunayev, Sabah Şəriəti, Nataliya Sinişin, Hacı Əliyev, Cəbrayıl Həsənov və Şərif Şərifov, avarçəkən İnna Osipenko-Radomskaya isə bürünc medala layiq görüldülər. Medal sıralamasında Azərbaycan 39-cu oldu.

## *Medallara layiq görülmüş Azərbaycan idmançılarını təbrik edirik!*


**Radik İsayev**
*taekvondo, qızıl*


**Mariya Stadnik**
*qadın güləşi, gümüş*


**Toğrul Əsgərov**
*sərbəst güləş, gümüş*


**Xetaq Qazyumov**
*sərbəst güləş, gümüş*


**Lorenzo Sotomayor**
*boks, gümüş*


**Elmar Qasımov**
*cüdo, gümüş*


**Rüstəm Orucov**
*cüdo, gümüş medal*


**Valentin Demyanenko**
*kanoe, gümüş*


**Rəsul Çunayev**
*yunan-Roma güləşi, bürünc*


**Sabah Şəriəti**
*yunan-Roma güləşi, bürünc*


**Natalya Sinişin**
*qadın güləşi, bürünc*


**Hacı Əliyev**
*sərbəst güləş, bürünc*


**Cəbrayıl Həsənov**
*sərbəst güləş, bürünc*


**Şərif Şərifov**
*sərbəst güləş, bürünc*


**Kamran Şahsuvarlı**
*boks, bürünc*


**Milad Beiqi Harçeqani**
*taekvondo, bürünc*


**Patimat Abakarova**
*taekvondo, bürünc*


**İnna Osipenko-Radomskaya**
*avarçəkmə, bürünc*

mozaika

texnologiya

## 3D ev printeri qida hazırlayır



«Natural Machines» startapı qida üçün «Lipson» adlı 3D ev printeri yaradıb. Qurğu müxtəlif inqrediyentlərdən ibarət 8 kartricin köməyi ilə müxtəlif qidaları çap edə bilər. Cihazın ölçüsü kofeqaynadan boydadır.

Əvvəllər ixtiraçılar tərəfindən qida çap etmək üçün təqdim edilmiş 3D printerlərin dəyəri nisbətən baha və inqrediyentlər çox məhdud idi. Yeni qurğuda kartriclərin daxilində dondurulmuş püre formasında inqrediyentlər var. «Lipson» bu inqrediyentlərdən yeməli tozlar, gellər, pastalar və başqa qidalar hazırlayır.

Tərtibatçıların sözlərinə görə, proqram təminatı 3D printerin işləməsində aparıcı rol oynayır. Əvvəllər belə qurğular detalların çapı üçün istifadə olunurdu. Qida hazırlamaq üçün fərdi 3D printerə 5-10 il sonra hər kəs sahib ola bilər. Qurğu Beynəlxalq Kulinariya Mərkəzinin dəstəyi ilə yaradılıb.

Alimlər düşünürlər ki, «Lipson» qurğusu 2020-2025-ci illərdə hər bir mətbəxin bəzəyi olacaq.

## Hakerlər insan beyninə müdaxilə edə biləcəklər

Yaxın gələcəkdə insan beyninə implantasiya olunan elektronika adiləşə bilər. Futuroloqların proqnozuna görə, implantatlar mərkəzi sinir sistemini əlavə güclə təmin edəcək və insanın düşünmə qabiliyyətini xeyli genişləndirməyə kömək edəcək. Bundan başqa, birbaşa mərkəzi sinir sisteminə impulslar göndərməklə ən müxtəlif xəstəliklərin müalicəsi mümkün olacaq.

Avqustun 1-də «Google» tərəfindən təsis edilmiş yeni şirkət 2023-cü ilədək miniatür elektrik implantatlar hazırlamağı qarşısına məqsəd qoyub. Üzvi elektronika artrit, diabet və astma kimi xroniki xəstəliklərin müalicəsinə imkan verəcək. Bununla belə, beyin-kompüter interfeysi beyin üçün təhlükə yarada bilər.

Vaşinqton Universitetinin biorobot texnikası laboratoriyasının elektrik mühəndisi Hovard Çijekin proqnozuna görə, artıq yaxın gələcəkdə kibercinayətkarlar birbaşa insan ağlına müdaxilə edəcək.

## Təzə çəkilmiş meyvə şirələri

bunu bilmək vacibdir



Meyvə şirələrinin əsas faydalı xüsusiyyətləri onların tərkibindən asılıdır. Məsələn, portağal şirəsi immun sisteminə müsbət təsir edən askorbin turşusu ilə zəngindir, kök şirəsinin tərkibində insanın görmə qabiliyyətini yaxşılaşdıran retinol var. Həmçinin təzə şirələrdən necə istifadə etməyi, onları hansı müddətədək saxlamağı bilmək lazımdır ki, maksimum fayda gətirsin və insan sağlamlığına heç bir ziyan vurmasın.

Təzə şirələri xüsusi borucuqlarla içmək lazımdır, çünki onların çoxu diş minasına mənfi təsir göstərir. Şəkərli diabetdən əziyyət çəkən insanlara meyvə şirəsi içmək məsləhət görülmür. Təzə şirələrin işlətmə təsiri var, buna görə də onları su ilə qarışdırmaq lazımdır. Şirəni alma, limon, portağaldan sıxmaq olar. Onlar turşuluğu artırır, buna görə də mədə iltihabından və ya mədə xorasından əziyyət çəkən insanlara məsləhət görülmür. Bunu da xatırladaq ki, təzə şirələr güclü allergen ola bilər. Odur ki, içməzdən əvvəl bu və ya digər şirəyə allergik reaksiyasının olub-olmadığını aydınlaşdırmaq lazımdır.

Şirə çəkilən kimi içilməlidir. Onun tərkibində mağazada satılan şirələr kimi konservantlar yoxdur, buna görə də tez xarab olur. Korlanmış şirəni içmək sağlamlığa ziyandır, çünki onun tərkibində zəhərli maddələrin, yaxud patogen mikroorqanizmlərin yaranması mümkündür. Təzə çəkilən şirəni saxlamaq lazımdırsa, hava ilə reaksiyaya girməməsi üçün qabın ağzı möhkəm qapadılmalıdır. Sonra onu buzxanaya qoymaq tövsiyə olunur.

## Kişilərin fiziki göstəriciləri aşağı düşür

tədqiqat



Şimali Karolina ştatının Vinston-Salema Universitetinin alimləri tərəfindən aparılan tədqiqatlar nəticəsində son 30 ildə kişilərin fiziki göstəricilərinin aşağı düşdüyü müəyyən edilib.

Araşdırmalar yeni nəsil kişilərin güc və sağlamlıq baxımından 30 il əvvəlki həmyaşıdlarına məğlub olduqlarını göstərib. Güclü cinsin 20-34 yaşlı nümayəndələri arasında aparılan araşdırmalarda onların güc göstəriciləri yoxlanılıb. Məlum olub ki, müasir kişilər 30 il əvvəlki yaşıdlarından 12 kiloqram zəifdirlər. Bundan əlavə, tədqiqat iştirakçılarında əvvəllər daha yaşlı nəslə aid olan bir sıra xəstəliklər, o cümlədən ürək və əsəblə bağlı problemlər müəyyən edilib. Tədqiqatın rəhbəri doktor Elizbet Fainin sözlərinə görə, bu dəyişiklik ilk növbədə müasir kişilərin həyat tərzi ilə bağlıdır. Buna misal kimi iş yerlərində əl əməyinin azalması, istifadə olunan kimyəvi elementlər göstərilir.

Alimlər tədqiqatların nəticələrinin yalnız fiziki göstəricilərə aid olduğunu, ruh və xarakter zəifliyinə heç bir aidiyyəti olmadığını vurğulayıblar. Bundan əlavə, mütəxəssislər vəziyyətin əsasən dəyişə biləcəyini də qeyd ediblər. Misal üçün, bildirilir ki, iş saatlarından sonra idmanla məşğul olaraq buna nail olmaq mümkündür.

**Müdriklər deyib ki...**



*«Cəmiyyət əxlaqlı olanda qanunları daha asan tətbiq etmək olur».*
*Jan Batist Molyer (1622-1673)*